AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET
1931-ci ildən
nəşr olunur

14 iyun 2016-cı il № 33-36 (9039) Qiyməti 50 qəpik



…Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.

…Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan hüquqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır.

Biz Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparıb, ümumdünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.

Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm də müasir potensialı olduqca böyükdür. Bunların hamısından səmərəli istifadə olunarsa, Azərbaycan həm tam müstəqil demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlər əsasında qurulan demokratik bir cəmiyyət olacaq. Bunun üçün bizim həm elmimiz, həm mədəniyyətimiz, həm tarixi ənənələrimiz, həm dini mənbəyimiz olan islam dini hamısı birlikdə çox böyük əsas yaradır. Vəzifəmiz bundan ibarətdir ki, bunlardan səmərəli istifadə edək.

Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalıdır. Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu, bizim əsas vəzifələrimizdən biridir. Güman edirəm ki, biz buna nail olacağıq.

*(Ümummilli Liderimiz Heydər ƏLİYEVİN
Azərbaycan Respublikası Milli Məclisinin
1993-cü il 15 iyun tarixli iclasında çıxışından)*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi**

*Gəmiçiliyin bütün işçilərini Azərbaycanın bugünkü nailiyyətlərinin təməlinin qoyulduğu*

**15 İYUN – MİLLİ QURTULUŞ GÜNÜ**

*münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinə möhkəm cansağlığı, firavan həyat, xoşbəxtlik, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə fəaliyyətlərində yeni-yeni uğurlar, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında layiqincə davam etdirilməsi nəticəsində gündən-günə çiçəklənən müstəqil Azərbaycanımıza daha böyük tərəqqi arzulayır.*

**BAYRAMINIZ MÜBARƏK!**

## BU SAYIMIZDA

### XXIII BEYNƏLXALQ "XƏZƏR NEFT VƏ QAZ 2016" SƏRGİSİ

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgi və konfransının, həmçinin VI Xəzər Beynəlxalq Energetika və Alternativ enerji sərgisinin açılışında iştirak edib.***

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgisi Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, "ITECA Caspian" və "ITE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilib.

Səh. 2

### GİROV GÖTÜRÜLƏN DƏNİZÇİLƏR AZAD EDİLİB

***İki ay bundan əvvəl "Əbu Səyyaf" terror qruplaşmasının yaraqlıları tərəfindən girov götürülən dörd nəfər Malayziya vətəndaşı əsirlikdən azad olunaraq, iyunun 8-də evlərinə qayıdıblar.***

Səh. 3

### "ŞİMAL-CƏNUB" MARŞRUTUNDA KOORDİNASİYA KOMİTƏSİNİN YARADILMASINA DAİR QƏRAR QƏBUL OLUNUB

***"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının sürətləndirilməsi üçün Koordinasiya Komitəsinin yaradılmasına dair qərar qəbul olunub.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, qərar Rusiyanın Soçi şəhərində 11-ci Beynəlxalq dəmir yolu biznes forumu çərçivəsində imzalanıb.

Səh. 4

### GƏNCLƏR ÜÇÜN "AÇIQ QAPI" GÜNÜ

***Mayın 26-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Gənclər Mərkəzinin təşəbbüsü ilə Xəzər Dəniz Neft Donanmasında "Gənclərlə Açıq qapı günü" adlı görüş keçirilib. Görüşdə Donanmanın və İnsan resurslarının idarəedilməsi departamentinin rəhbərliyi, əməkdaşları və donanmada çalışan gənclər iştirak ediblər.***

Qeyri-rəsmi formatda keçirilmiş görüşdə Xəzər Dəniz Neft Donanmasının rəisi İsrail Bayramov bildirib ki, sahil strukturlarında və gəmilərdə gəncləşmə siyasəti davam etməkdədir.

Səh. 5

# MİLLİ QURTULUŞ GÜNÜ ƏRƏFƏSİNDƏ DAHA 4 GƏMİMİZ İSTİSMARA VERİLDİ

***Milli Qurtuluş Günü ərəfəsində Türkiyənin Yalova bölgəsində yerləşən "Tərsan" tərsanəsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin aldığı daha 4 quru yük gəmisində - "Şair Vaqif", "Şair Sabir", "Hüseyn Cavid" və "General Aslanov" gəmilərində bayraqqaldırma mərasimi keçirilib. İyunun 11-də baş tutan mərasimdə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, Rusiya və Türkiyənin gəmiçilik şirkətlərinin məsul şəxsləri, istismara verilən gəmilərin heyətləri və KİV nümayəndələri iştirak ediblər.***












İzmit körfəzində yerləşən "Tərsan" tərsanəsi bayraqqaldırma mərasimi münasibəti ilə bayramsayağı bəzədilmişdi. Yeni istismara verilən gəmilərin heyətləri əsl bayram əhval-ruhiyyəsi yaşayırdılar. Gəmilərdəki xidməti otaqlarda Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, dövlət bayrağımız asılıb, gəmilərin hər birində adını daşıdığı görkəmli şəxsiyyətin həyat və fəaliyyətini, yaradıcılığını əks etdirən guşə yaradılıb.

Təntənəli mərasimdə çıxış edən Qüdrət Qurbanov bildirdi ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda gəmiçiliyin inkişafına həmişə xüsusi diqqət yetirib. Bu məqsədyönlü siyasətin Prezident İlham Əliyev tərəfindən bacarıqla davam etdirilməsi sayəsində ölkəmizin ticarət donanması sürətlə yenilənir, beynəlxalq dəniz daşımalarındakı mövqelərimiz möhkəmlənir, bu sahədə yeni-yeni uğurlar qazanılır. Gəmiçiliyin inkişafını ölkəmizin sosial-iqtisadi yüksəlişinin mühüm göstəricisi kimi dəyərləndirən Q.Qurbanov əminliklə qeyd etdi ki, gəmiçilərimiz vəzifələrinin öhdəsindən bundan sonra da layiqincə gələcəklər.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev Prezident İlham Əliyevin ölkəmizdə dəniz nəqliyyatının inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən danışaraq, AXDG-nin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması ilə yanaşı, Xəzərdənkənar fəaliyyətinin bərpası, donanmanın yenilənməsi kimi strateji hədəflərin daim diqqət mərkəzində olduğunu, bu istiqamətdə məqsədyönlü iş aparıldığını vurğuladı. Yeni gəmilərin alınmasını Prezident İlham Əliyevin yeni daimi iş yerlərinin açılması, beynəlxalq yükdaşımalarda rəqabətədavamlılığın təmin edilməsi, büdcə gəlirlərinin qeyri-neft sektoru hesabına artırılması, xarici sularda ölkəmizin təmsil və təbliğ olunması siyasətinin tərkib hissəsi kimi dəyərləndirən R.Vəliyev donanmanın təzələnməsi istiqamətində görülən digər çoxşaxəli işlər barədə də ətraflı məlumat verdi. O, qeyd etdi ki, yeni alınan "Rəsul Rza", "Şair Vaqif", "Şair Sabir", "Hüseyn Cavid", "General Aslanov" və "Qafur Məmmədov" da daxil olmaqla, Xəzərdənkənar hövzələrdə işləyən gəmilərimizin sayı 11-ə çatıb. Bundan başqa, Bakı Gəmiqayırma Zavoduna sifariş edilmiş 3 ədəd 80 nəfərlik sərnişin gəmisinin apreldə dövlət başçımızın iştirakı ilə istismara verilməsi 9 minlik kollektivdə böyük ruh yüksəkliyi yaradıb.

Gəmi kapitanı Elşad Nəzərov bildirdi ki, görkəmli şairimiz Hüseyn Cavidin adını daşıyan gəmidə çalışmaq hər bir azərbaycanlı dənizçi üçün iftixardır. "Hüseyn Cavid" gəmisinin hər bir heyət üzvü həm mütəxəssis, həm də vətəndaş olaraq böyük məsuliyyət daşıyır.

"Tərsan" tərsanəsinin məsul əməkdaşı Osman Çalın Türkiyənin ərazi sularında Azərbaycan bayrağı altında üzən gəmilərin sayının sürətlə artmasını hər bir türkiyəli üçün qürur yeri, sevinc mənbəyi adlandırdı.

Çıxışlarda o da diqqətə çatdırıldı ki, Azərbaycana məxsus yük gəmilərinin Türkiyənin ərazi sularında və qardaş ölkəyə məxsus şirkətlər tərəfindən istismara hazırlanması Azərbaycan-Türkiyə qardaşlıq münasibətinin daha bir göstəricisidir. Azərbaycan gəmilərinə xalqımızın böyük xadimlərinin, o cümlədən görkəmli şair və yazıçıların adlarının verilməsi Ulu Öndər Heydər Əliyevin tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi ənənəsinin uğurlu davamı kimi qiymətləndirildi.

Sonra gəmilərin Azərbaycan bayrağı altında üzməsi haqqında hüquqi şəhadətnamələr kapitanlara təqdim olundu. Azərbaycanın dövlət himninin sədaları altında üçrəngli bayraqlarımız hər gəminin dor ağacında qaldırıldı.

Daha sonra Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Türkiyə nümayəndəliyinin İstanbuldakı ofisinin açılışı oldu.

Qeyd edək ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin xarici sularda fəaliyyəti 2014-cü ildə "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa olunub, 2015-ci ildə nəqliyyat donanmamızın 3 gəmisi - "Qaradağ", "Teymur Əhmədov" və "Maestro Niyazi" gəmiləri Qara və Aralıq dənizlərinə göndərilib, ötən ay isə bu hövzədə istismar üçün 6 quru yük gəmisi alınıb. Yeni gəmilər Rusiyada inşa edilib, "Natəvan" və "Üzeyir Hacıbəyli" gəmiləri ilə eyni layihədəndir. Dedveyti 5490 ton, uzunluğu 108,3 metr, eni 16,5 metr, suya oturumu 4,8 metr olan gəmilər Qara dəniz, Aralıq dənizi və digər hövzələrdə yükdaşıma əməliyyatlarına cəlb ediləcək. Rusiya Dəniz Registrinin mərasimdə iştirak edən nümayəndələrinin məlumatına görə, Azərbaycanın aldığı Rusiya istehsallı yeni gəmilər ən müasir standartlara cavab verir. Yanacaq sərfində qənaətcilliyə, böyük yükgötürmə imkanına malik gəmilər yüksək təhlükəsizlik sistemləri ilə təchiz olunub.

***Vüqar SADIQOV***

# XXIII BEYNƏLXALQ “XƏZƏR NEFT VƏ QAZ 2016” SƏRGİSİ

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də XXIII Beynəlxalq “Xəzər Neft və Qaz 2016” sərgi və konfransının, həmçinin VI Xəzər Beynəlxalq Energetika və Alternativ enerji sərgisinin açılışında iştirak edib.***

Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIII Beynəlxalq “Xəzər Neft və Qaz 2016” sərgisi Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, “ITECA Caspian” və “ITE Group” şirkətlərinin təşkilatçılığı ilə keçirilib. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 240 şirkət iştirak edib. Bütövlükdə sərginin ekspozisiya sahəsinin 63,7 faizini xarici iştirakçılar tutub. VI Xəzər Beynəlxalq Energetika və Alternativ enerji sərgisi Xəzəryanı regionun enerji səmərəliliyi və bərpa olunan enerji sahəsində yeganə ixtisaslaşmış tədbiridir.

Beynəlxalq “Xəzər Neft və Qaz 2016” sərgi və konfransında çıxış edən “ITE Group Plc” şirkətinin xüsusi məsləhətçisi Endryu VUD tədbirin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, son illərdə dünyada neft, qaz və energetika sahələrində böyük dəyişikliklərin baş verməsi fonunda müzakirələr aparmaq üçün bu tədbir gözəl platformadır.

Azərbaycan Prezidenti İlham ƏLİYEV sərgi-konfransda nitq söyləyib. Dövlətimizin başçısı sərgi və konfransın ölkəmizin həyatında əlamətdar hadisə olduğunu deyib. İlk sərginin 1994-cü ildə keçirildiyini xatırladan Prezident İlham Əliyev bildirib ki, o zaman Azərbaycan gənc müstəqil dövlət idi və ölkəmizin enerji potensialını dünyaya nümayiş etdirmək baxımından sərginin vacib rolu vardı. Xarici sərmayədarlar üçün ən cəlbedici sahənin neft sahəsi olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanda neft sənayesinin uğurlu inkişaf yolu barədə danışıb. SOCAR ilə BP-nin 22 ildir ki, etibarlı tərəfdaş kimi mühüm layihələrdə birgə işlədiyini qeyd edən Prezident İlham Əliyev bu əməkdaşlığın gözəl perspektivləri olduğunu da vurğulayıb, SOCAR-ın artıq beynəlxalq enerji şirkətinə çevrildiyini, Azərbaycanda və xaricdə böyük investisiyalar yatırdığını diqqətə çatdırıb. 1994-cü ildən bu günə qədər digər sahələrdə olduğu kimi, neft-qaz sahəsində qarşıya qoyulan bütün layihələrin uğurla icra olunduğunu deyən dövlətimizin başçısı ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldildiyini xüsusi qeyd edib və bildirib ki, görülən işlərin əsas məqsədi Azərbaycanda neftdən asılılığı aşağı salmaq və iqtisadiyyatı şaxələndirməkdir. “Şahdəniz” yatağının dünya miqyasında ən böyük qaz yataqlarından biri olduğunu bildirən Prezident İlham Əliyev “Cənub Qaz Dəhlizi” layihəsinin icrasının həm “Şahdəniz”, həm də digər yataqlardan çıxan Azərbaycan qazının dünya bazarına ixrac olunmasında roluna toxunub.

“Cənub Qaz Dəhlizi” layihəsinə dünyada marağın daha da artdığını bildirən Prezident İlham Əliyev bu layihənin perspektivindən danışıb, onun mövcud formatının genişləndiriləcəyini qeyd edib. Vurğulayıb ki, layihənin icrası ilə bağlı işlər qrafik üzrə gedir. Prezident İlham Əliyev bu layihənin dünyada enerji təhlükəsizliyi məsələsində rolunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan enerji amilindən əməkdaşlığı dərinləşdirmək üçün istifadə edir. Ölkəmizin kifayət qədər qaz ehtiyatlarının olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, hazırda “Abşeron” və “Ümid” yataqlarının işlənilməsi ilə bağlı işlər aparılır. Azərbaycanın elektrik enerjisi ixrac etdiyini, ölkəmizin beynəlxalq əməkdaşlığın təşəbbüskarı olduğunu vurğulayan Prezident İlham Əliyev deyib ki, bu layihələrdən tranzit və istehlakçı ölkələr də bəhrələnir. “Bizim gələcəyə dəqiq, aydın baxışlarımız var”, - deyən dövlətimizin başçısı bildirib ki, 25 il ərzində Azərbaycan müstəqil ölkə kimi yaşaya bildiyini sübut edib. Dövlətimizin başçısı 2016-cı ilin sınaq ili olduğunu, neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, ölkədə bütün sosial layihələrin icra edildiyini, gələn il iqtisadi artımın bərpa olunacağını, gələcəkdə neft amilindən asılılığı tam aradan qaldırmaq üçün işlərin görüldüyünü söyləyib. Prezident İlham Əliyev deyib ki, ölkəmiz etibarlı tərəfdaş kimi özünü artıq bütün dünyada təsdiq edib.

Son 20 ildə ABŞ şirkətlərinin Azərbaycanın iqtisadiyyatında fəal iştirak etdiyini, ölkələrimiz arasında siyasi və iqtisadi münasibətlərin inkişaf etdiyini vurğulayan ABŞ dövlət katibinin köməkçisinin müavini Robin Dunnigan Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamanın sərgiyə ünvanladığı məktubu oxuyub. Məktubda Azərbaycanın enerji sahəsində çox mühüm rola malik etibarlı tərəfdaş olduğu bildirilir, ölkəmizin “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşmasında böyük rolu yüksək qiymətləndirilir və ABŞ-ın bu layihəni dəstəklədiyi qeyd olunur.

Sonra Böyük Britaniya Baş nazirinin ticarət üzrə elçisi Baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun məktubunu oxuyub. Məktubda ölkələrimiz arasında əlaqələrin mühüm əhəmiyyət daşıdığı bildirilir, Britaniya şirkətlərinin Azərbaycanda neft sektorunun davamlı inkişafında vacib rol oynamasından məmnunluq ifadə edilir. Azərbaycanın enerji resurslarının dünyanın enerji təhlükəsizliyi üçün mühüm rola malik olduğu bildirilən məktubda BP və digər enerji şirkətlərinin “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşmasına töhfə verdikləri vurğulanır.

Sonra Prezident İlham Əliyev sərgilərlə tanış olub.

SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verilib. Bildirilib ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Bu proqramlar çərçivəsində tullantı mərkəzinin genişləndirilməsi layihəsi də var. Prezident İlham Əliyevə SOCAR-ın təlim və təhsil proqramları, Bakı Ali Neft Məktəbinin fəaliyyəti, elmi-tədqiqat işləri və şirkətin işində əsas götürdüyü nano texnologiyalar barədə məlumat verilib. SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə də geniş məlumat vardı. Hazırda Azərbaycan, İsveçrə, Gürcüstan, Rumıniya və Ukraynada “SOCAR” ticarət markası altında 370-dən artıq yanacaqdoldurma məntəqəsi xidmət göstərir. Stenddə, həmçinin “Şahdəniz Mərhələ-2”, “Cənub” qaz dəhlizi, “Azəri-Çıraq-Günəşli” yataqları, neft və qaz hasilatı, axtarış və kəşfiyyat işləri barədə dolğun məlumatlar yer almışdı.

BP şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Prezident İlham Əliyevə burada “Şahdəniz” layihəsi ilə bağlı görülən işlər barədə məlumat verilib. Qeyd edilib ki, “Şahdəniz Mərhələ-2” və Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi layihələri üzrə işlərin 70 faizdən çoxu tamamlanıb. Şirkət SOCAR ilə birgə yeni yataqların kəşfi istiqamətində axtarışları davam etdirir.

“Türkiyə Petrolları” şirkəti “Əsrin müqaviləsi”nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərən şirkətlərdəndir. Bu qurum Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Ümumilikdə, Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir.








Prezident İlham Əliyev SOCAR -Türkiyə stendinə baxıb. Burada dövlətimizin başçısına SOCAR-ın Türkiyədə həyata keçirdiyi layihələr barədə məlumat verilib. SOCAR 2015-ci ildə Türkiyənin ən böyük xarici investoru olub. Bildirilib ki, “Petkim” Türkiyənin ilk və yeganə neft-kimya zavodudur. Burada 60 növdə məhsul istehsal edilir. Məhsullar dünyanın 50-dən artıq ölkəsinə ixrac olunur və Türkiyədə 6 min müəssisə tərəfindən istifadə edilir.

STAR neft emalı zavodu Türkiyədə özəl sektorun inşa etdiyi ilk neft emalı müəssisəsidir. Zavodun 2 il sonra istifadəyə verilməsi nəzərdə tutulur. “Petkim” isə Egey dənizi bölgəsinin ən böyük konteyner limanıdır. Layihənin reallaşdırılması ilə dünyanın ən böyük gəmiləri limana yan ala biləcək.

Builki sərgiyə Çin də böyük maraq göstərib. Bu ölkənin Neft üzrə Texnologiya və İnkişaf Korporasiyası sərgidə öz xidmət və məhsullarını təqdim edib. Dünyada məşhur olan bu şirkət əsasən neft avadanlığının təchizatı ilə məşğuldur. Şirkət artıq 12 ildir ki, Azərbaycan bazarındadır.

Prezident İlham Əliyev “Rusneft” şirkətinin stendinə də baxıb. Bu şirkət Rusiyanın ən böyük 10 neft şirkətindən biridir. “Rusneft” Azərbaycan ilə yanaşı, Qazaxıstanda, Afrika ölkələrində və dünyanın digər bölgələrində fəaliyyət göstərir.

“SOCAR-Polimer” müəssisəsi nəinki Azərbaycanda, regionda ən böyük investisiya layihələrindən biridir. Layihə son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək üçün 2013-cü ildə təsis edilən “SOCAR-Polimer” şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılan Sumqayıt Kimya Sənaye Parkında inşa olunur. Şirkətin iki qurğusu hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək.

SOCAR-ın “Caspian Driling Company” şirkəti 17 ildir fəaliyyət göstərir. Şirkətin fəaliyyətində əsas məqsəd qurğularla əlaqədar quyu tikintisi və kompleks layihə idarəetməsi xidmətlərini təmin edən dəniz qazma əməliyyatçısı olmaqdır. Şirkət artıq özünü Xəzər dənizinin qazma sənayesində təsdiq edə bilib.

Almaniya sərgidə milli stendlə təmsil olunub. Bu ölkənin 8 şirkəti sərgidə öz xidmət və məhsullarını təqdim edib. Bu şirkətlər nəinki Almaniyanın, eləcə də dünyanın tanınmış şirkətləridir. Onlar əsasən qazma, neft hasilatı, kəşfiyyat, gəmi təmiri və xidmətlər, ölçü və avtomatlaşdırılmış texnika, dəniz platformaları, enerji təchizatı kimi xidmətlərini təqdim edir.

Qazaxıstanın “Caspian Offshore Construction” şirkəti 2003-cü ildə yaradılıb. Şirkət Xəzər dənizində gəmilərin idarə edilməsini, istismarını və texniki xidmətlərini həyata keçirir. Dünyanın tanınmış şirkətləri “Caspian Offshore Construction” ilə əməkdaşlıq edir. Şirkət fəaliyyətində əsas meyar kimi keyfiyyət və operativliyi seçib.

İtaliya da sərgiyə böyük maraq göstərib. Bu ölkənin 8 şirkəti sərgidə neft-qaz sahəsinə aid məhsulları nümayiş etdirib. İtaliyanın şirkətləri ölkəmizdə neft-qaz sahəsində həyata keçirilən layihələrdə yaxından iştirak edir.

Amerika-Azərbaycan Ticarət Palatası da sərgidə təmsil olunub. Palatanın missiyası Azərbaycanda biznes mühitinin təkmilləşdirilməsinə və üzvlərə xidmətlər göstərməklə onların biznes maraqlarını artırmağı təmin etməkdir. 1996-cı ildə yaradılmış palata Azərbaycan iqtisadiyyatının hər bir sektorunda fəal olan 280-dən çox üzvdən və müxbir üzvdən ibarətdir.

Sərgidə məhsullarını nümayiş etdirən İranın “Qaz Souzan” şirkəti 1980-ci ildə yaradılıb və qaz avadanlığı istehsal edir. Onun məhsulları arasında yüksək təzyiqli qaz tənzimləyiciləri, sənaye üçün qaz qızdırıcıları və qaz sayğacları sərgidə təqdim olunub.

Norveçin “Hexagon Composites” şirkəti də sərgiyə böyük maraq göstərib. Burada şirkətin sıxılmış qaz üçün balonları nümayiş etdirilib.

Fransanın dünyada böyük nüfuz sahibi olan “Total” şirkəti Azərbaycanın ənənəvi tərəfdaşlarından biridir. Bu şirkət ən müasir texnologiyalarla bağlı zəngin təcrübəsini bundan sonra da ölkəmizlə bölüşməyə hazırdır. “Total” şirkəti “Abşeron”, “Ümid” və “Babək” qaz yataqlarında ölkəmizlə yaxından əməkdaşlıq edir.

Sərgilərlə tanış olan Prezident İlham Əliyev XXIII Beynəlxalq “Xəzər Neft və Qaz 2016” sərgi və konfransının xatirə kitabını imzalayıb.

İyunun 4-dək davam edən sərgidə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti geniş ekspozisiya ilə iştirak edirdi. Pavilyonumuz Xəzər şelfində beynəlxalq neft-qaz layihələrinin gerçəkləşdirilməsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rolu, dəniz neftçilərinə göstərilən xidmətlər, neft və neft məhsullarının daşınması barədə ətraflı təsəvvür yaradıb. Əməkdaşlarımız maraqlananlara Gəmiçiliyin fəaliyyəti, donanmamızın imkanları və əməkdaşlıq perspektivləri ilə bağlı lazımi məlumat veriblər. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev sərgidəki təmsilçilərimizlə görüşüb, potensial tərəfdaşlarla aparılacaq söhbətlərə dair tövsiyələrini bildirib.

***“DƏNİZ”***

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN NÜMAYƏNDƏLƏRİ “POSEYDONİYA-2016” SƏRGİSİNDƏ



***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Zamiq İsmayılovun başçılığı ilə nümayəndə heyəti Yunanıstan paytaxtında keçirilən “Poseydoniya-2016” sərgisində iştirak edib.***

İyunun 6-dan 10-dək təşkil olunan sərgi ilə yanaşı, konfrans, seminar və görüşlər müxtəlif ölkələrdən gəlmiş biznes nümayəndələri, iri dənizçilik şirkətləri üçün yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından çox önəmli olub. Avropada ən nüfuzlu biznes platformalarından sayılan və iki ildən bir keçirilən “Poseydoniya-2016” çərçivəsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələri insan resurslarından səmərəli istifadəyə və dəniz təhlükəsizliyinin idarə edilməsinə dair seminarlarda müzakirələrə qoşulublar, dəniz nəqliyyatı sahəsində innovasiyalarla tanış olublar.

Bununla yanaşı, müxtəlif beynəlxalq təşkilatların, təsnifat cəmiyyətlərinin, dənizçilik təhsili müəssisələrinin təmsilçiləri ilə çoxsaylı görüşlər keçirilib, qarşılıqlı faydalı münasibətlərin qurulması perspektivləri müzakirə edilib. Həmçinin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 2018-ci ildə Poseydoniya sərgisində iştirakı ilə əlaqədar məsələlər də diqqət mərkəzində olub.

## Yolunuz həmişə açıq olsun

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin yeni aldığı və mayda istismara buraxdığı “Rəsul Rza” quru yük gəmisi dogma sulardan uzaqlarda - Qara dənizdə ilk səfərini uğurla başa vurub. Dor ağacında müstəqil Azərbaycanın bayrağı dalğalanan gəmimiz Rusiyanın Temruk limanından Türkiyənin Mersin limanına 4680 ton düyü yükü çatdırıb.

Görkəmli Azərbaycan şairinin adını daşıyan teploxodun növbəti səfəri Türkiyənin İskəndərun limanından Ukraynanın Oçakov limanına olacaq.

Yolunuz həmişə açıq olsun, əziz dənizçilər!

# GÖRÜŞDƏ QARŞILIQLI FAYDALI ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLİB

***Mayın 24-də Polşanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Marek Tsalka “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətində olub. Cəmiyyətin sədri Rauf Vəliyevlə görüşdə qarşılıqlı faydalı əməkdaşlıq məsələləri müzakirə edilib.***

Rauf Vəliyev son illərdə Azərbaycanın dəniz nəqliyyatında aparılan köklü islahatlar, Gəmiçiliyin strukturunda və fəaliyyətində müsbət dəyişikliklər, xarici əlaqələrin genişlənməsi barədə ətraflı söhbət açıb, Polşanın gəmiçilik və gəmi təmiri müəssisələri ilə əməkdaşlıq imkanlarından danışıb. Bildirib ki, Polşaya işgüzar səfərləri zamanı bu sahədə ixtisaslaşan müxtəlif şirkətlərlə yaxından tanış olub, onların istehsal etdiyi məhsullarla maraqlanıb. Bu gün Gəmiçiliyin donanmasında Polşa istehsalı olan gəmilər var və onların ehtiyat hissələri, müasir avadanlıqlarla təchizatı üçün birbaşa müqavilələrin bağlanması, mütəxəssis mübadiləsi qarşılıqlı əhəmiyyət kəsb edir. Azərbaycan gəmiçiliyi məhz belə səmərəli, şəffaf və müasir prinsiplərə əsaslanan əməkdaşlığa tərəfdardır.



Səfir Marek Tsalka Polşa ilə Azərbaycan arasında müxtəlif sahələrdə tərəfdaşlıq münasibətlərinə toxunub, genişlənən iqtisadi əlaqələri, o cümlədən gəmiçilik sahəsində gələcək perspektivləri yüksək dəyərləndirib. O bildirib ki, səfirlik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə Polşa şirkətlərinin əməkdaşlıq imkanlarının artması istiqamətində kömək göstərməyə hazırdır.

Görüşdə hər iki tərəfi maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR

# HƏYATININ MƏQSƏDİ MÜSTƏQİL AZƏRBAYCAN OLAN DAHİ RƏHBƏR

***Xalq mənə ümid bəsləyir, mən bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram.***

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

***Heydər Əliyevin ideyaları yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, onun yolu ilə inkişaf edir.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



***Yazını yazmaq istəyərkən ixtiyarsız görkəmli rəssam Nikas Safronovun Ulu öndərimiz Heydər Əliyev haqqında dediyi “Bu dahi insan digər dahilərdən qat-qat böyükdür” sözlərini xatırladım. Və əminəm ki, xilaskarımız haqqında mahir fırça ustası kimi düşünənlərin sayı-hesabı yoxdur.***

Bütün şərəfli ömrünü insanlığa və canından artıq istədiyi Azərbaycana həsr edən Ümummilli liderimiz Heydər Əliyevin dahiliyini isə hər birimiz zaman keçdikcə daha dərindən dərk edirik. Ulu öndərin Azərbaycan üçün etdikləri göz işlədikcə uzanan göylər kimi ölçüyəgəlməz, nəhayətsizdir. Bu gün qədirbilən hər bir azərbaycanlının qəlbində Ulu öndərin ölməz və işıqlı obrazının yaşamasının bir səbəbi də budur.

Sözün əsl mənasında, Vətəni ilə nəfəs alan, doğma Azərbaycanı üçün hər cür fədakarlığa hazır olan Ulu öndərin tükənməz gücü təkcə iradəsində, müdrikliyində, zəkasında deyildi, həm də xalqına sevgisində və xalqın ona sonsuz sevgisində idi. Vətəni üçün heç nəyini əsirgəməyən Heydər Əliyev dönə-dönə deyirdi ki, “Mənim həyatımın məqsədi müstəqil Azərbaycandır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam.” Vətənə sevgisi bu müqəddəs işdə onun ən böyük dayağı idi.

Doğma Azərbaycanı üçün həyatından keçməyə hazır olduğunu xalqımız da yaxşı bildiyindən ölkəmizin ən ağır çağında – başı üzərində qara buludlar dolaşanda, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşəndə Ulu öndərə üz tutdu və xilaskarını təkidlə yenidən siyasi hakimiyyətə gətirdi. Heç kimə sirr deyil ki, 1993-cü ildə bu qayıdış, bu tarixi dönüş olmasaydı, bugünkü Azərbaycan da olmazdı.

Ümummilli liderimiz 1993-cü ildə məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı göyləri çiynində saxlayan dağlar kimi öz qüdrətli çiyinlərinə aldı. Hadisələrin mümkün inkişaf istiqamətlərini dəqiqliklə müəyyənləşdirərək, zəkasının tükənməz imkanları daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək cəhdlərinin qarşısını almağa yönəltdi və məqsədinə nail omaqla yanaşı, müasir müstəqil Azərbaycan dövlətinin tərəqqisini təmin edəcək bütün zəruri tədbirləri gördü. Başqa sözlə, Azərbaycanı bizə möhkəm dayaqlar üzərində dayanan müstəqil dövlət kimi təhvil verdi. Atdığı hər addım, verdiyi hər bir qərar dövlətçiliyimizin möhkəmlənməsinə, ərazi bütövlüyümüzün bərpasına və iqtisadi tərəqqinin davamlılığına hesablandığından xalqımızda dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yaratdı.



Heydər Əliyev bütün daxili, regional və beynəlxalq amilləri nəzərə alaraq, Azərbaycanın təkrarsız milli inkişaf modelini yaratdı. Xalq Ulu öndərin müəyyənləşdirdiyi kursun hərtərəfli inkişafa, möhkəm dövlətçiliyə sarsılmaz zəmin olduğuna, Azərbaycanı sözün əsl mənasında ağ günə çıxaracağına əmin olduğundan, onun atdığı hər addımı qətiyyətlə dəstəklərdi.

Azərbaycanın düşmənləri, bədxahlar ölkəmizin iqtisadiyyatına ciddi zərbələr vurmaq üçün dəridən-qabıqdan çıxdıqları bir vaxtda böyük siyasi xadim uzaqgörənliklə qədim İpək yolunun bərpası məsələsini qaldırdı və Şərqlə Qərbi birləşdirən ən səmərəli yolun məhz qədim İpək yolu olduğuna dünya dövlətlərini inandıra bildi. Onların elmi institutlarının on illərlə işləyib bir nəticəyə gələ bilmədiyi problemin Heydər Əliyev Bakıda keçirilən beynəlxalq konfransda elmi əsaslarla şərhini verdi.

Bu da gün kimi aydın həqiqətdir ki, Azərbaycan xalqı təbiətin ona bəxş etdiyi zəngin sərvətlərdən - neft adlı xəzinədən öz xeyri, öz mənafeyi üçün yalnız xalqın təkidi ilə Ulu öndər hakimiyyətə qayıtdıqdan sonra lazımınca bəhrələnməyə başladı, siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu illərdə isə yeni neft strategiyası həm də müstəqil Azərbaycanımıza böyük siyasi və iqtisadi dividendlər gətirdi və gətirməkdə davam edir. Ulu öndərin yeni neft siyasəti ilə bağlı bütün maneələri böyük məharətlə aradan qaldırdığı vaxtlarda uzaqgörənliklə dediyi bu sözlərin doğruluğunu isə artıq zaman da təsdiqləyir: ”Əsrin müqaviləsi” ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq”.

Bu gün biz hamımız dövlətçilik və azərbaycançılıq həyat və faliyyətinin əsas prinsiplərindən olan Ulu öndərin ideyalarının təntənəsini yaşayırıq. Prezident İlham Əliyevin Ümummilli lider Heydər Əliyev irsinə, onun müəyyənləşdirdiyi kursa böyük sadiqliyi, onu zamanın tələblərinə uyğun, çox böyük məharətlə davam etdirməsi Azərbaycanın dünya dövlətləri sırasında layiqli yer tutmasını təmin etmiş, ölkəmizi regionun liderinə çevirmiş, həyata keçirilən qlobal və regional layihələr dünyaya inteqrasiyasını sürətləndirmişdir. Möhtərəm Prezidentimizin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, dəniz nəqliyyatı sahəsində də çox mühüm işlər görülmüş, böyük nailiyyətlər əldə edilmişdir.

Siyasi məharəti, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanı işıqlı inkişaf yoluna çıxaran, onu dünyaya tanıdıran, xalqımızın milli-mənəvi dəyərlərini özünə qaytaran Ulu öndər titanik fəaliyyəti ilə ürəklərdə özünə yaradıcısı olduğu müstəqil Azərbaycan boyda əbədi abidə ucaldıb.

Dünənə kimi bizi tanımaq istəməyənlər, xain qonşularımıza arxa, dayaq duranlar, haqq səsimizi qulaq ardına vuranlar isə artıq bizimlə xoş münasibətlər qurmağa, bizimlə dostluq və əməkdaşlıq etməyə çalışırlar. Əlimizi dostcasına sıxanların sayı ildən-ilə artır və onlar da etiraf edirlər ki, Azərbaycan xalqının xoşbəxt yaşamaq haqqı heç kəsdən az deyil və bu haqqı onun əlindən daha heç kəs ala bilməz.

***Rasif TAHİROV***

## Xəzər dənizinin hüquqi statusu üzrə Xüsusi işçi qrupun 45-ci iclası olub

***İyunun 8-10-da Moskvada Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın işlənib hazırlanması üzrə Xüsusi işçi qrupun (XİQ) Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində 45-ci iclası keçirilib.***



Danışıqlarda Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistanın nümayəndə heyətləri iştirak ediblər. Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Xələf Xələfov başçılıq edib.

Nümayəndə heyətlərinin başçıları Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Qazaxıstanda nəzərdə tutulan müşavirəsi nöqteyi-nəzərindən Moskva iclasının xüsusi əhəmiyyətini vurğulayıblar, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya üzərində işin tezliklə başa çatmasının zəruri olduğunu qeyd ediblər.

İlkin razılaşmaya müvafiq olaraq, XİQ-də aparılan diskussiya Xəzər akvatoriyasında gəmiçilik rejimi və sahilyanı dövlətin yurisdiksiyası, yerin təkindən istifadə məqsədi ilə dənizin dibinin bölünməsi məsələləri üzərində cəmləşdirilib. Razılaşdırılan fikirlər Konvensiya layihəsində əksini tapıb.

Nümayəndə heyətləri danışıqların yekunlarını müsbət qiymətləndirib, görüşün yüksək səviyyədə təşkil edilməsinə görə Rusiya Federasiyasına təşəkkür ediblər.

Xüsusi işçi qrupun növbəti iclası Qazaxıstanda keçiriləcək.

## SENTYABRDA ÇİNDƏN GƏLƏN İKİ YÜK QATARI AZƏRBAYCANDAN KEÇMƏKLƏ GÜRCÜSTANA YOLA SALINACAQ

***Bu ilin sentyabr ayında Çindən gələn iki yük qatarı Azərbaycandan keçməklə Gürcüstanın Poti limanına yola salınacaq.***



Bu sözləri “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov deyib.

O bildirib ki, qatarlar Çin-Qazaxıstan sərhədindəki “Dostık” stansiyasından Aktau limanına, daha sonra Gürcüstanın Poti limanına kimi yükdaşıma həyata keçirəcək. Qatarlar Almaniyanın DHL şirkəti ilə əməkdaşlıq çərçivəsində hərəkət edəcək.

C.Qurbanov qeyd edib ki, Gürcüstanın Poti limanında isə yüklər artıq istiqamətlərini müstəqil şəkildə dəyişəcək. Belə ki, onların bir qismi Baltikyanı ölkələrə göndərildiyi üçün “Viking train” marşrutu üzrə hərəkət edəcək.

Qeyd edək ki, “Viking train” layihəsi 3 ölkə - Litva, Belarus və Ukraynanı əhatə etməklə 2003-cü ildə yaradılıb və yüklərin Baltik dənizi hövzəsindən Qara dəniz hövzəsinə daşınmasını nəzərdə tutur. “Viking train” layihəsi Xəzər dənizi hövzəsinə çıxış əldə etməklə, bundan sonra həm Şərq istiqamətində (Orta Asiya və Çin), həm də Cənub istiqamətində (İran körfəzi və Hindistan) və əks istiqamətdə yüklərin daşınmasına imkan yaradacaq. Bu layihə Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi və onun bir hissəsi olan Astara-Rəşt-Qəzvin dəmir yolu xəttinin əhəmiyyətini artıracaq.

## GİROV GÖTÜRÜLƏN DƏNİZÇİLƏR AZAD EDİLİB

***İki ay bundan əvvəl “Əbu Səyyaf” terror qruplaşmasının yaraqlıları tərəfindən girov götürülən dörd nəfər Malayziya vətəndaşı əsirlikdən azad olunaraq, iyunun 8-də evlərinə qayıdıblar.***



Bu barədə “Star” qəzeti məlumat yayıb.

Məlumatda bildirilir ki, Kuala-Lumpur və Manilanın hökumət strukturları arasında aparılan danışıqlardan sonra əldə olunan razılığa əsasən, iyunun 8-də dənizçilər azad edilərək Sandakan şəhərinə gətiriliblər.

Həmin dənizçilər aprelin 1-də Filippindən geri qayıdarkən Sabah sahillərində girov götürülmüşdülər. Onların gəmisi sürətli qayıq tərəfindən saxlanılmışdı. Yaraqlılar dənizçiləri girov götürərək naməlum istiqamətdə aparmışdılar.

Daxil olan məlumatlarda “Əbu Səyyaf” yaraqlılarının girovları azad etmək üçün yeddi milyon ABŞ dolları tələb etdiyi bildirilirdi. Girovların azad edilməsi üçün tələb olunan məbləğin ödənilməsi barədə məlumat verilmir.

# “ŞİMAL-CƏNUB” MARŞRUTUNDA KOORDİNASİYA KOMİTƏSİNİN YARADILMASINA DAİR QƏRAR QƏBUL OLUNUB

***“Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının sürətləndirilməsi üçün Koordinasiya Komitəsinin yaradılmasına dair qərar qəbul olunub.***



“Azərbaycan Dəmir Yolları” QSC-nin mətbuat katibliyindən bildirilib ki, qərar Rusiyanın Soçi şəhərində 11-ci Beynəlxalq dəmir yolu biznes forumu çərçivəsində imzalanıb. Forumda ölkəmizi “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Forum çərçivəsində “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov, “Rusiya Dəmir Yolları” ASC-nin prezidenti Oleq Belozyorov və İran İslam Respublikası Dəmir Yolunun baş direktoru Mohsen Purseyid Ağayi birgə görüş keçiriblər.

Görüşdə “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişaf perspektivləri, dəhlizə yüklərin cəlb olunması kimi məsələlər diqqət mərkəzində olub. Danışıqlar zamanı “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanovun təklifi ilə, nəqliyyat dəhlizinin inkişafının sürətləndirilməsi üçün, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda olduğu kimi, “Şimal-Cənub” marşrutunda da Koordinasiya Komitəsinin yaradılmasına dair qərar qəbul olunub. Görüşün sonunda tərəflər arasında protokol imzalanıb.

Görüşdə Finlandiya Dövlət Dəmir Yolu konserninin rəhbəri Mikael Aro da iştirak edib. Aparılan danışıqlarda Finlandiyanın da “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinə cəlb olunması məsələsi müzakirə edilib. Finlandiya təmsilçisi ölkəsinin bu nəqliyyat dəhlizinə maraq göstərdiyini bildirib.

Qeyd edək ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi Hindistan, İran körfəzi ölkələri, İran və Azərbaycandan keçməklə daha sonra Rusiya, Baltik dənizi hövzəsi ölkələri və Skandinaviya ölkələrinə qədər uzanır. Finlandiyanın dəhlizə qoşulması nəqliyyat dəhlizinin potensialını daha da gücləndirəcək.

Xatırladaq ki, layihəyə 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində Rusiya, İran və Hindistan arasında imzalanan razılaşma ilə start verilib. 2005-ci il sentyabrın 20-də layihəyə Azərbaycan da qoşulub. 2016-cı il aprelin 20-də isə Azərbaycan-İran sərhədində, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində, dəmir yolu körpüsünün tikintisinə start verilib.

## Nəqliyyat dəhlizi ilə yükdaşımanın artırılmasına dair tədbirlər planı təsdiqlənib

***Odessada GUAM-ın işçi qrupunun 12-ci iclası keçirilib. GUAM Katibliyinin iştirak etdiyi iclasa təşkilata üzv dövlətlərin nəqliyyatının inkişafına məsul olan idarə başçıları qatılıb.***



Bu barədə GUAM-ın Kiyevdəki qərargahından məlumat verilib.

İclasda nəqliyyatın inkişafına və tranzit potensialının artırılmasına dair tədbirlər haqqında GUAM-a üzv ölkələrin milli nümayəndə heyətlərinin, habelə GUAM nəqliyyat dəhlizinin inkişafı Konsepsiyasının həyata keçirilməsinə dair Katibliyin məlumatları dinlənilib.

Tərəflər nəqliyyatın inkişafına məsul olan idarə rəhbərlərinin Odessa Bəyannaməsini qəbul edib. Həmçinin GUAM nəqliyyat dəhlizi ilə yükdaşımanın artırılmasına dair tədbirlər planı təsdiqlənib. İclasda həmin planın hazırlanması və həyata keçirilməsində ekspertlər tərəfindən görülən işlər yüksək qiymətləndirilib.

Tədbirin sonunda 2017-ci ilin birinci yarısında Kiyevdə, GUAM Katibliyində işçi qrupun növbəti iclasının keçirilməsi barədə razılıq əldə olunub.

# GƏMİQAYIRMA FƏALİYYƏTİNƏ DÖVLƏT DƏSTƏYİ

***“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında”, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında”, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının qanunları iyunun 1-də Prezident İlham Əliyev tərəfindən imzalanıb.***




Məsələyə münasibət bildirən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı AZƏRTAC-a deyib ki, qanunların qəbul olunmasında əsas məqsəd ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili sahəsində fəaliyyət göstərən sahibkarlara güzəştlərin tətbiqi, onların inzibati yükünün azaldılması, bu sahənin inkişafının stimullaşdırılmasına dövlət dəstəyinin göstərilməsidir. Konkret olaraq bu dəyişikliklər Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyətinin təşkilinə dövlət tərəfindən verilən böyük islahat dəstəyidir. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164-cü maddəsinə edilən dəyişikliklərə əsasən, Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı 2016-cı ilin mayın 1-dən etibarən 5 il müddətinə əlavə dəyər vergisindən (ƏDV) azad olunur. Həmin Məcəllənin 165-ci maddəsinə edilən dəyişikliklərə əsasən isə Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidentinə podratçı tərəfindən, podratçıya isə onunla birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsindən 2016-cı ilin mayın 1-dən etibarən 5 il müddətinə əlavə dəyər vergisi (ƏDV) sıfır dərəcə ilə tutulur.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 45-ci maddəsinə edilən dəyişikliyə əsasən, aşağıda qeyd olunan kateqoriyadan olan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsi veriləcək: 1) Qaradağ Sənaye Parkının rezidenti və onun Azərbaycan vətəndaşları və ya Azərbaycanda təsis edilmiş hüquqi şəxslər olan podratçısı tərəfindən dəvət edilmiş gəmiqayırma sahəsində ali təhsilə və ya müvafiq ixtisas üzrə peşə təhsilinə və bu sahədə ən azı bir il iş təcrübəsinə malik olan mütəxəssislərə; 2) Azərbaycanda təsis edilmiş və ya təsisçisi və ya təsisçilərindən ən azı biri xarici hüquqi və ya fiziki şəxs olan hüquqi şəxsin rəhbəri və onun müavinlərinə.

“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsində edilən dəyişikliyə əsasən, Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçısı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən əcnəbilər 2016-cı ilin mayın 1-dən etibarən 5 il müddətinə məcburi dövlət sosial sığortasından azad olunurlar.

“Gömrük tarifi haqqında” Qanunun 20-ci maddəsinə edilən dəyişikliyə əsasən, Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan sənaye parkının rezidenti tərəfindən İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı 2016-cı ilin mayın 1-dən etibarən 5 il müddətinə gömrük rüsumlarından azad ediləcək.

Beləliklə, Qaradağ Sənaye Parkının ilk rezidenti statusu almış “Bakı Gəmiqayırma Zavodu” MMC-nin fəaliyyətinə hərtərəfli şərait yaradılıb. Bu zavod SOCAR, Azərbaycan İnvestisiya Şirkəti və Sinqapurun “Keppel Offshore & Marine” şirkəti tərəfindən təsis edilib. Müəssisə ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz və mühəndislik işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. Bu müəssisədə ildə 15 min ton yükgötürmə qabiliyyəti olan dörd və ya 70 min ton yükgötürmə qabiliyyəti olan iki tanker və dörd özül təchizat gəmisi tikmək, müxtəlif təyinatlı 80-100 gəmini təmir etmək mümkündür. Bunun üçün investisiya axını və əmək qüvvəsinin azad hərəkəti üçün bütün şərait yaradılıb. Zavodun Bakı Beynəlxalq Dəniz Ticarət Limanına yaxın olması gələcəkdə sinerji effekti yaradacaq. Ələtdə yaradılacaq Azad İqtisadi Zona Bakı Gəmiqayırma Zavodu ilə “biznes-to-biznes” formatında bir-birinə daha çox dəstək verəcək. Dövlət tərəfindən aparılan islahatlar həm qanunvericilik mühitinin təkmilləşdirilməsi, həm infrastrukturun yaxşılaşdırılması və həm də sinerji effektinin yaradılmasına xidmət edir. Bakı Gəmiqayırma Zavodu Azərbaycanın gəmiçilik sahəsində idxaldan asılılığını aradan qaldıracaq və Xəzər donanmasını müasirləşdirməyə imkan verəcək ki, bununla da Azərbaycanın dəniz dövləti kimi qüdrəti artacaq. Hazırda Azərbaycan gəmiləri bir çox hallarda xarici ölkələrdə təmir edilir. Digər tərəfdən, Azərbaycan Xəzər donanmasının gücləndirilməsi məqsədilə müxtəlif illərdə xaricdən xeyli sayda tanker, yük gəmisi və bərə alıb. Bakı gəmiqayırma zavodunun işə düşməsindən sonra isə Azərbaycanın tələbatını ödəyə biləcək bütün növ gəmilər ölkəmizdə istehsal olunacaq, onların təmiri burada aparılacaq. Eyni zamanda, bu zavod ixrac potensialımızın gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

## 2016-cı ildə Transxəzər nəqliyyat marşrutu üzrə 53-ə qədər konteyner qatarı təşkil edilməsi nəzərdə tutulur

***2016-cı ildə Qazaxıstan ərazisi ilə Çin–Avropa–Çin istiqamətində 100 min konteyner daşınacaq. Bu, 2015-ci ilin müvafiq göstəricisindən iki dəfə çoxdur.***



Qazaxıstan Dəmir Yollarının rəsmi saytı xəbər verir ki, “Kazakstan temir joli” milli şirkəti” səhmdar cəmiyyətinin prezidenti Askar Mamin bunu Soçidə keçirilən “Strateji tərəfdaşlıq 1520” mövzusunda XI Beynəlxalq dəmir yol biznes-forumunda bildirib.

Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə “Nomad Express” konteyner servisi işə salınıb, Çindən Azərbaycana, Türkiyəyə və geriyə, habelə Ukraynadan Çinə pilot konteyner qatarları təşkil edilib.

Cari, 2016-cı ildə Çin – Qazaxıstan – Azərbaycan – Gürcüstan – Türkiyə marşrutu üzrə 53-ə qədər konteyner qatarı təşkil edilməsi nəzərdə tutulur.

Baltikyanı ölkələrdən Qara dəniz limanları vasitəsilə konteyner qatarlarının hərəkətinin nizamlanması, təyinat məntəqəsi Qazaxıstan, Mərkəzi Asiya ölkələri və Çin olan “Nomad Express” konteyner servisi ilə inteqrasiya edilməsi planlaşdırılır. Qazaxıstan dəmir yollarının rəhbəri bildirib ki, Asiya ilə Avropa arasında körpü rolu oynayan Transxəzər marşrutunun potensialı 2020-ci ilə qədər 300 min ədəd iyirmi futluq konteyner ekvivalenti həcmində qiymətləndirilir

# XORVATİYA QAZAXISTAN ÜÇÜN İKİ BƏRƏ İNŞA EDƏCƏK



***Xorvatiyanın gəmiqayırma zavodu Xəzər dənizində dəmiryolu vaqonlarını daşımaq məqsədilə Qazaxıstan üçün 2 bərə gəmisi inşa edəcək.***

Bununla əlaqədar Xorvatiya və Qazaxıstan arasında müqavilə imzalanıb. “Qazaxıstan Dəmir Yolları” SC-nin prezidenti Əskər Mamin bildirib ki, ölkəsi “Kurık” bərə kompleksinin tikintisinə başlayıb. “Bu çox vacib layihə tranzit potensialının inkişafına təkan verəcək. Biz Azərbaycan, Gürcüstan, Türkiyə, Çin tərəfdaşlarımızla birgə Transxəzər tranzit dəhlizini hazırlayırıq. Yüklərin daşınması üçün bizə bərə lazımdır. Bu gün biz iki bərənin inşası üçün müqavilə bağladıq və artıq gələn il birincisini, o biri il isə ikinci bərəni əldə edəcəyik”, - deyə o qeyd edib.

İyunun 4-ü Xorvatiya və Qazaxıstan şirkətləri Zaqrebdə bir sıra iqtisadi sahələr üzrə 260 milyon avro məbləğində sərmayə müqavilələri imzalayıblar. İmzalanma mərasimində Xorvatiyanın Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç də iştirak edib.

## Qazaxıstanda tikilən yeni liman Azərbaycandan bu ölkəyə yük daşımalarını sürətləndirəcək

***Qazaxıstanda tikilən yeni liman Azərbaycandan Qazaxıstana yük daşımalarını sürətləndirəcək.***



Bu sözləri jurnalistlərə açıqlamasında Qazaxıstanın Maliyyə Nazirliyinin Dövlət Gəlirlər Komitəsinin sədr müavini Qosman Amrin deyib.

O bildirib ki, Aktau yaxınlığında tikilən yeni Kurık limanı Bakı Beynəlxalq Dəniz Ticarət Limanına bənzəyəcək və Aktau limanından 100 kilometr aralıqda yerləşəcək.

Qosman Amrin qeyd edib ki, yeni limanın imkanları Aktau limanından dəfələrlə artıq olacaq və bu liman vasitəsilə Azərbaycandan Qazaxıstana yük daşımaları sürətləndiriləcək.

# BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATININ ÜZV DÖVLƏTLƏRİNİN AUDİT SXEMİNƏ (İMSAS) ƏSASƏN KEÇİRİLMƏSİ NƏZƏRDƏ TUTULAN AUDİT YOXLAMASINA HAZIRLIQ İŞLƏRİNİN APARILMASI MƏQSƏDİLƏ GÖRÜŞ KEÇİRİLMİŞDİR

*Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında 2 iyun 2016-cı il tarixində Beynəlxalq Dəniz Təşkilatının (BDT) Üzv Dövlətlərinin Audit Sxeminə (İMSAS) əsasən keçirilməsi nəzərdə tutulan audit yoxlamasına hazırlıq işlərinin aparılması məqsədilə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Müdafiə Nazirliyinin, Ədliyyə Nazirliyinin, Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Xarici İşlər Nazirliyinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir.*



Görüş zamanı Administrasiyanın rəis müavini Şahlar Məmmədov çıxış edərək Beynəlxalq Dəniz Təşkilatının 2013-cü il 4 dekabr tarixli A.1067(28) nömrəli "BDT-nin Üzv Dövlətlərinin Audit Sxeminin Strukturu və Prosedurları haqqında" Qətnaməsinə uyğun olaraq 2017-ci ilin may ayında Azərbaycanda audit yoxlamasının keçirilməsinin nəzərdə tutulduğunu bildirərək, yoxlamanın Beynəlxalq Dəniz Təşkilatının 2015-ci il 2 dekabr tarixli A.1105(29) nömrəli Qətnaməsi ilə təsdiq edilmiş "Beynəlxalq Dəniz Təşkilatının Alətlərinin İcra edilməsinə dair Məcəllə"yə müvafiq alətlər üzrə öhdəliklərin 2015-ci il tarixli natamam siyahısına" əsasən aparılacağını və siyahı üzrə BDT-nin əsas konvensiyalarından və Məcəllələrindən irəli gələn tələblərin yerinə yetirilməsinin yoxlanılacağını qeyd etmişdir. Həmçinin görüş iştirakçılarına 7-11 dekabr 2015-ci il tarixlərində Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsinin Beynəlxalq Dəniz Təşkilatının Üzv Dövlətlərinin Audit Yoxlama Sxeminə hazırlıq səviyyəsinin yoxlanılmasının (MoC audit) həyata keçirildiyinə dair məlumat verilərək, auditorlar tərəfindən hazırlanmış hesabatdan və yoxlama siyahısından edilmiş çıxarışlar aidiyyəti üzrə müvafiq qurumların nümayəndələrinə təqdim edilmişdir.

Görüş zamanı qurumlararası əməkdaşlığın genişləndirilməsinin vacib olduğu bildirilərək dənizdə axtarış və xilasetmə sahəsində birgə fəaliyyət planının, neftlə çirkləndirilmə hallarına hazırlıq və mübarizə üzrə milli fəaliyyət planının layihələrinin üzərində aparılan işləri yekunlaşdıraraq real təhlükə şəraitində işlək bir mexanizmin qurulmasının zəruriliyi vurğulanmışdır.

Uğurlu qurumlararası əməkdaşlıq nümunəsi kimi, Administrasiyanın Müdafiyə Nazirliyinin Hərbi Dəniz Qüvvələrinin Naviqasiya və Kartoqrafiya idarəsi ilə birgə Azərbaycan Respublikasının ərazi sularında gəmilərin hərəkətinin bölünmə sisteminin (GHBS) layihəsinin hazırlanması qeyd edilərək bu sistemin təsdiqlənməsi məsələsi müzakirə olunmuşdur.

Görüş zamanı həmçinin dəniz nəqliyyatı ilə təhlükəli yüklərin daşınması, Azərbaycan Respublikasının Beynəlxalq Hidroqrafiya Təşkilatına üzv olması, liman qəbuledici qurğuları məsələləri ətrafında müzakirələr aparılmışdır.

Sonda Dövlət Dəniz Administrasiyasının rəis müavini Ş.Məmmədov dəniz nəqliyyatı sahəsində olan boşluqların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər sırasında Ticarət Gəmiçiliyi Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə düzəlişlərin edilməsinə dair Administrasiya tərəfindən təkliflərin hazırlandığını qeyd edərək qısa müddətdə bu təkliflərin razılaşdırmaya təqdim ediləcəyini bildirmişdir.

# GƏNCLƏR ÜÇÜN "AÇIQ QAPI" GÜNÜ

*Mayın 26-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Gənclər Mərkəzinin təşəbbüsü ilə Xəzər Dəniz Neft Donanmasında "Gənclərlə Açıq qapı günü" adlı görüş keçirilib. Görüşdə Donanmanın və İnsan resurslarının idarəedilməsi departamentinin rəhbərliyi, əməkdaşları və donanmada çalışan gənclər iştirak ediblər.*



Qeyri-rəsmi formatda keçirilmiş görüşdə Xəzər Dəniz Neft Donanmasının rəisi İsrail Bayramov bildirib ki, sahil strukturlarında və gəmilərdə gəncləşmə siyasəti davam etməkdədir. O, Gəmiçilik üçün alınan yeni gəmilərdən danışaraq, ən müasir avadanlıqlarla təchiz olunan gəmilərdə yüksək təhsilli, savadlı və bacarıqlı gənclərin işləyəcəklərini vurğulayıb.

İnsan resurslarının idarəedilməsi departamentinin rəisi Sevda Məmmədova gənc kadrların yetişdirilməsinin əhəmiyyətindən söhbət açıb, bu işdə gənclərin öz səyləri ilə yanaşı, onların təhkim olunduğu məsul şəxslərin də rolunun böyük olduğunu deyib. Dənizçilik sahəsinin kadr yetişdirilməsi baxımından ən çətin sahələrdən olduğunu söyləyən S. Məmmədova üzən heyət üzvləri arasında bilik və təcrübə mübadiləsinin vacibliyini qeyd edib.

Görüşdə Gənclər Mərkəzinin koordinatoru Cabir Süleymanlı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində gənclərə münasibət, o cümlədən işə qəbulda onlara üstünlük verilməsi, karyera imkanları barədə ətraflı məlumat verib. O, Gəmiçilik rəhbərliyinin gənclərə daha çox güvəndiyini xatırladaraq, belə görüşlərdə gənclərin problemləri və təklifləri ətrafında fikir mübadiləsi aparılmasının əsas məqsəd olduğunu bildirib.

Qeyd edək ki, gənclərlə bu formatda görüşlərin davamlı olaraq bütün strukturlar üzrə keçirilməsi planlaşdırılır.

# ADDA BEYNƏLXALQ DƏNİZ UNİVERSİTETLƏRİ ASSOSİASİYASINA ÜZV OLMAQ NİYYƏTİNDƏDİR

*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Dövlət Dəniz Akademiyası Beynəlxalq Dəniz Universitetləri Assosiasiyasına (BDUA) üzv olmağa hazırlaşır. Bu məqsədlə BDUA-ya müvafiq qaydada müraciət edilib.*





Beynəlxalq Dəniz Universitetləri Assosiasiyasının rəsmi nümayəndəsi - İstanbul Texniki Universitetinin Dənizçilik fakültəsinin dekanı, professor Oğuz Salim Söğüt mayın 23-dən 25-dək Bakıda səfərdə olub, Azərbaycan Dövlət Dəniz Akademiyasında audit aparıb. Qonaq Cənubi Qafqaz - Orta Asiya regionunda ali təhsilli dənizçi kadrlar yetişdirən bu yeganə təhsil ocağının maddi-texniki bazası - trenajorlar, simulyatorlar, ixtisaslaşmış laboratoriya və auditoriyalarla yaxından tanış olub, Akademiyanın "General Əsədov" tədris gəmisində və ADDA-nın nəzdində olan Təlim-Tədris Mərkəzində mütəxəssislərin hazırlanması prosesi ilə maraqlanıb.

ADDA-nın rektoru Çingiz Əliyev professor Oğuz Salim Söğütla görüşdə rəhbərlik etdiyi ali təhsil müəssisəsinin yaranma tarixi, beynəlxalq tələblər səviyyəsində qurulmuş tədris prosesi, innovativ fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələr və inkişaf perspektivləri barədə ətraflı məlumat verib.

Professor O.S.Söğüt Akademiyanın fakültə dekanları, kafedra müdirləri, professor-müəllim heyətilə də görüşüb, bu səfəri zamanı topladığı təəssüratları yüksək qiymətləndirib.

BDUA nümayəndəsinin Azərbaycan Dövlət Dəniz Akademiyasında apardığı auditin yekunları ilə bağlı hesabat hazırlanıb və ADDA-nın Assosiasiyaya üzvlüyü məsələsinə baxılıb.

*Vüqar SADIQOV*

# Dinləyicilərə beynəlxalq sertifikatlar veriləcək



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Dəniz Akademiyasının beynəlxalq əlaqələri genişlənməkdədir. Peşəkar dənizçi kadrlar yetişdirən bu ali təhsil müəssisəsində bakalavr və magistr hazırlığı ilə yanaşı, donanmalarda çalışanların ixtisaslarının artırılmasına və müvafiq qaydada sertifikatlandırılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə beynəlxalq miqyasda tanınan dənizçilik universitetlərindən mütəxəssislər dəvət olunur, mütəmadi kurslar təşkil edilir.

Rusiyanın Novorossiysk şəhərində yerləşən Admiral F.F.Uşakov adına Dövlət Dəniz Universiteti ilə bağlanmış müqaviləyə görə, həmin müəssisənin mütəxəssisləri - "Gəmi sürücülüyü" kafedrasının dosentləri, texnika elmləri namizədləri, kapitanlar Erkin Subanov və Anatoli Popov iyunun 6-dan Azərbaycan Dövlət Dəniz Akademiyasının Dənizçilərin Hazırlanması və Sertifikatlandırılması Mərkəzinin təlimatçıları üçün Beynəlxalq Dəniz Təşkilatının aşağıdakı model kursları əsasında təlimlər keçirlər:

- Trenajor hazırlığı üzrə təlimatçı və hazırlığın qiymətləndirilməsi üzrə mütəxəssis, IMO Model Course 6.10 (Radar, ARPA)
- Trenajor hazırlığı üzrə təlimatçı və hazırlığın qiymətləndirilməsi üzrə mütəxəssis, IMO Model Course 6.10 (ECDIS)
- Mütəxəssislər üçün təlim kursu, IMO Model Course 6.09 (ISPS Code)
- Trenajor hazırlığı üzrə təlimatçı və hazırlığın qiymətləndirilməsi üzrə mütəxəssis, IMO Model Course 6.10 (Neft tankerlərinin yük-ballast əməliyyatları)

İyunun 15-dək davam edəcək təlimlərdən sonra dinləyicilərin bilikləri qiymətləndiriləcək və onlara beynəlxalq sertifikatlar veriləcək.

# Azərbaycanın nəqliyyat imkanları barədə danışılıb

***Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə Genuya şəhərində yerləşən "Telenord" televiziya kanalının "Transport" verilişinə müsahibə verib.***

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, müsahibədə Azərbaycanın nəqliyyat imkanları, qədim İpək Yolu layihəsinin bərpası, Şimal-Cənub nəqliyyat dəhlizinə Azərbaycanın töhfələri, ölkəmizdə həyata keçirilən mühüm nəqliyyat və infrastruktur layihələri və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı barədə məlumat verilib. Bu layihələrin Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsinin dərinləşməsinə əsaslanan yeni iqtisadi modelinin tərkib hissəsi olması vurğulanıb.

Müsahibə səfirin İtaliyanın Liquriya regionunun paytaxtı Genuya şəhərinə işgüzar səfəri çərçivəsində təşkil olunub. Səfər zamanı M.Əhmədzadə Liquriya regionunun prezidenti Covanni Toto, Genuya şəhərinin meri Marko Doriya və regionun işgüzar dairələri və mədəniyyət sahəsinin nümayəndələri ilə görüşlər keçirib. Görüşlərdə Azərbaycan Respublikasının Genuya şəhərindəki fəxri konsulu xanım Marqarita Kosta da iştirak edib.

# Dənizə körpə balıqlar buraxılır



*Neftçaladakı Xıllı Nərə Balıqartırma Zavodundan Kür çayı vasitəsilə Xəzər dənizinə nərəcinsli körpə balıqların buraxılmasına hazırlıq işləri görülür. Zavod fəaliyyət göstərdiyi illər ərzində, ümumilikdə, 45 milyondan artıq müxtəlif növ nərə cinsli balıq körpəsi yetişdirərək dənizə buraxıb.*

AZƏRTAC xəbər verir ki, 2007-ci ildən başlayaraq yaz-yay balıqartırma mövsümündə yetişdirilən nərə cinsli balıq körpələrinin bir qismi zavod şəraitində yetişdirilərək 80-150 qrama çatdırıldıqdan sonra Kür çayının mənsəbinə buraxılır. Son illərin təcrübəsi göstərir ki, ənənəvi normal çəkidən daha yüksək çəkidə körpələrin təbii ərazilərə buraxılması daha effektli olur və onların açıq dənizdə yaşama ehtimalı xeyli yüksəlir. Bunu nəzərə alaraq, zavodun istehsalat infrastrukturunda müvafiq dəyişikliklərin edilməsi və istehsal olunan yüksək çəkiyə malik nərə cinsli körpə balıqların sayının bir neçə dəfə artırılması nəzərdə tutulub.

Ötən il Kür çayı vasitəsilə Xəzər dənizinə 5 milyon 6 min nərə cinsli körpə balıq buraxılıb. Bu il isə bundan daha çox balığın dənizə buraxılacağı gözlənilir.

Xatırladaq ki, 2003-cü ildən fəaliyyət göstərən Xıllı Nərə Balıqartırma Zavodu əsasən, nərə cinsli balıqların dörd növünün — bölgə, nərə, kələmo və uzunburun balıqların süni yolla artırılması ilə məşğul olur. Hazırda zavodda mənbə rolunu oynayan təmir-törədici fondda çəkisi 30-50 kiloqram olan kifayət qədər nəsilartıran nərə balığı var.

# Aralıq dənizi sahillərində 85 mühacirin cəsədi aşkarlanıb



**Aralıq dənizinin Liviya sahillərində 80-dən çox cəsəd aşkarlanıb.**

Rusiyanın NTV telekanalı xəbər verir ki, həyatını itirənlərin hamısının mühacir olduğu ehtimal edilir. Onların ölüm səbəbləri barədə hələ ki, məlumat verilməyib.

Miqrasiya orqanlarının məlumatlarına əsasən, ilin əvvəlindən bəri Aralıq dənizində 2,5 mindən çox mühacir həlak olub. Bu, keçən ilin analoji dövrü ilə müqayisədə 35 faiz artıqdır.

# UŞAQLAR DÜNYANIN BƏZƏYİ, HƏYATIMIZIN MƏNASIDIR

***Dünyanın bəzəyi olan uşaqlar ailənin sevinci, xoşbəxtliyi, yaşadıqları ölkənin ən dəyərli sərvətidirlər. Uşaqlara xüsusi qayğı və diqqətlə yanaşan Ulu öndərimiz Heydər Əliyev deyib ki, "Xalqımızın xüsusiyyəti, ən gözəl ənənələrindən biri də ondan ibarətdir ki, bizim insanlarımız, təkcə valideynlər yox, ümumiyyətlə hamı uşaqlara xüsusi qayğı və xüsusi münasibət göstərir, uşağı böyütməyi, ərsəyə gətirməyi, uşağa tərbiyə verməyi insanların əksəriyyəti həyatının mənası və məqsədi hesab edir."***









Dünyada uşaqların hüquqlarını təmin edən ilk bəyannamə hələ ötən əsrin əvvəllərində -1924-cü ildə qəbul edilmişdir. Cenevrədə Millətlər Liqasının Beşinci Assambleyasında həmin bəyannamənin qəbul edilməsində Birinci Dünya müharibəsinin dəhşətlərinin şahidi olan Böyük Britaniya vətəndaşı Eğlantin Cebbin böyük rolu olmuş və müharibənin dəhşətlərindən sarsılan bu insan uşaqların xüsusi müdafiəyə ehtiyacı olduğunu dünyaya bəyan etmişdir. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da qeyd olunan 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü isə 1950-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qərarı əsasında təsis olunub. Azərbaycanda uşaqların şən, xoşbəxt qayğısız böyüməsi üçün dövlət səviyyəsində bütün işlər görülür. Ölkəmizdə heç bir uşaq qayğıdan, diqqətdən kənarda deyil, çünki uşaqların dövlət himayəsində olması Konstitusiyamızda təsbit olunmuşdur.

"Uşaq hüquqları haqqında" Azərbyacan Respublikası Qanununda dövlətimizin bu sahədəki siyasəti belə müəyyənləşdirilib: "Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir".

Bundan başqa, hələ Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə respublikamız uşaq hüquqlarına dair bütün beynəlxalq müqavilələrə və konvensiyalara tərəfdar çıxmışdır. Ulu öndər deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olcaqdır". Ulu öndərin uşaqlara qayğı prinsipləri onun layiqli varisi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Uşaqlara dövlət qayğısının gücləndirilməsi məqsədilə prezidentimiz bir sıra sərəncamlar imzalamışdır, 2009-cu il isə ölkədə "Uşaq ili" elan edilmişdi.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə gerçəkləşdirilən "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı", "Yeniləşən Azərbaycana yeni məktəb" layihələri çərçivəsində görülən işlərin miqyası isə yaxşı mənada adamı heyrətləndirir.

Bu il aprelin 1-nə olan vəziyyətə görə, Azərbaycan əhalisinin sayı 9 milyon 730 min 500 nəfərə çatmışdır. Təkcə cari ilin yanvar-mart aylarında ölkəmizdə 39 min körpə doğulub və bu göstərici əhalinin hər 1000 nəfərinə 16,3 nəfər təşkil edib. Doğulan körpələrin 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarıdır. Körpələrin 696-sı əkiz, 12-si üçəm doğulub.

Bu gün biz uşaqların layiqincə böyüməsi üçün məsuliyyət daşıyırıq, sabah isə onlar, boya-başa çatandan sonra cəmiyyətimizin simasını müəyyən edəcək, dövlətimizin taleyi üçün cavabdeh olacaqlar.

Ulu öndər deyirdi: " Uşağa qayğı göstərmək, uşaqları qorumaq, uşaqları müdafiə etmək bizim müqəddəs borcumuzdur. Dövlətin, hökumətin, cəmiyyətin, hər bir vətəndaşın müqəddəs borcudur."

Uşaqlıq illəri insan həyatının ən rəngarəng, yaddaqalan və xoşbəxt çağlarıdır. Daimi diqqət və qayğı ilə əhatə olunacaqlarından, ölkəmizdə doğulan hər körpəni xoşbəxt həyat, gözəl gələcək gözləyir.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi də Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şənlik keçirdi. Gəmiçiliyin "Xəzər" və "Dalğa" uşaq bağçalarında tərbiyə alan balacalar üçün AXDG Gənclər Mərkəzinin təşəbbüsü ilə yenicə istismara verilmiş "Üfüq" sərnişin gəmisində gəzinti və əyləncə təşkil olunmuşdu.

Gəzinti boyunca üzündən sevinc əskik olmayan uşaqlar doyunca əyləniblər, onlar üçün təşkil edilmiş şən oyunların iştirakçısı olublar.

Sonra sentyabrda 1-ci sinfə gedəcək uşaqlara Gəmiçilik adından məktəbli dəsti hədiyyə edilib və birlikdə xatirə şəkli çəkilib.

***"DƏNİZ"***

# S.SARKİSYANIN HƏR ŞEYİ VAR, BİRCƏ ŞƏRƏFİ YOXDUR

***Ermənistan rəhbərliyi aprel müharibəsində aldıqları zərbədən sonra düşdüyü psixoloji apatiyadan çıxa bilmir. Prezident Serj Sarkisyanın apardığı siyasəti təhlil edərək, bir sıra erməni ekspertlər onun kənardan verilən direktivlərlə bir mövqedən digərinə keçdiyini söyləyir, bu mənada onu pinq-ponq oyununda ora-bura atılan top kimi xarakterizə edirlər. Siyasətdə stolüstü tennis topuna bənzəmək, təbii ki, şərəfli iş deyil. Ancaq elə S.Sarkisyanın da hər şeyi var, bircə şərəfi yoxdur. Bundan başqa, Ermənistan dövlətinin xarici siyasəti də bərbad vəziyyətdədir. İndi cəmiyyətdə yaranmış çaşqınlığın necə aradan qaldırılacağını Ermənistanda bilən yoxdur. Bu prizmadan Cənubi Qafqazın bu qondarma dövlətinin taleyinin necə olacağı suallar yaradır.***

**Siyasət və tennis: ermənisayağı bənzərlik**

Erməni ekspertlər yazırlar ki, hansısa dairələr Serj Sarkisyana "get tullan" əmrini verib. O da bütövlükdə Ermənistanın xarici siyasətini pinq-ponq topu kimi bir düşərgədən digərinə tullandırmaqdadır. Bu siyasi marginallığın adını isə rəsmi İrəvan "müstəqil kurs" qoyub (bax: Муса Микаелян. Внешнеполитический пинг-понг / "1in.am", 31 may 2016). S.Sarkisyan bir gün Avropa Xalq Partiyasının (EPP) Lüksemburqda keçirilən 40 illik yubileyində "mürgüləyəndən" sonra Astanaya Avrasiya İqtisadi İttifaqının (AİI) iclasına gedib. Onun bu gedişini erməni ekspertlər "Avropadan Rusiyaya tullanma" kimi qiymətləndiriblər.

Doğrudur, S.Sarkisyan ardıcıl olaraq ora-bura tullanır. Lakin özü bunun fərqində deyil. Çünki primitiv təfəkkürü genişmiqyaslı situasiyaları və onların arxasında duran məqamları dərk edə bilmir. Budur, Astanada tədbir iştirakçılarının gözünün içinə baxa-baxa, utanmadan, abır-həya gözləmədən donquldanır ki, Avrasiya İqtisadi İttifaqı Azərbaycanın "aqressiyasına" qarşı təşkilat olaraq dayanmalıdır. Sonra əlavə edir ki, Azərbaycanın xahişi əsasında atəşkəsə nail olunub və indi "DQR ordusu" vəziyyətə tam nəzarət edir (bax: Серж Саргсян выступил на саммите ЕАЭС / "Lragir.am", 31 may 2016).

Aprelin həmin 4 günündə erməni əsgəri də, onların baş komandanı sayılan terrorçu S.Sarkisyan da cücəyə dönmüşdülər. Azərbaycan əsgərinin qarşısında erməni əsgəri gözyaşı töküb ağlayırdı, S.Sarkisyan da gah Moskvaya, gah Brüsselə, gah da Berlinə şikayət edirdi. Bu Qarabağ terrorçusunun rəngi Ağrı dağının qarı kimi olmuşdu. Yalnız Kremlin təzyiqi, xahişi, yaxud inadı vasitəsilə Azərbaycan Ordusunun irəliləyişinə mane oldular.

Ən vacibi, rəsmi Bakı növbəti dəfə yüksək siyasi mədəniyyət, dialoqa sadiqlik, regionda sülh və barışa hörmət əlaməti olaraq atəşkəs təklifini qəbul etdi. İndi bu terrorçu, şəxsiyyətsiz və məntiqsiz adam Astanada deyir ki, Azərbaycan "təcavüzkardır", bizə kömək etməsəniz Ermənistan çökəcək, lakin biz vəziyyətə tam nəzarət edirik. Bir fikri ifadə edərkən bu qədər ziddiyyət içinə düşən S.Sarkisyan böyük dövlət işlərindən nə anlaya bilər? Heç bir şey.

Budur, baxın, Azərbaycana "təcavüzkar" deyən bir ölkənin KİV-ində hansı ruhda məqalələr dərc olunur. Onların hamısında hədə-qorxu, təhdid vardır (bunlar azərbaycanlılar üçün boş söz yığınından başqa bir şey deyil, çünki tarixən ermənilərin qadın və uşaq arxasından işlər görən, dinc adamlara qarşı terror törədən qorxaq məxluq olduqları məlumdur). Hətta "alimləri" və "analitikləri" belə aqressiyadan başqa bir şey demirlər.

Misal olaraq Ermənistanda "professor" adlandırılan Harnik Asatryan adlı bir erməni deyir ki, "Azərbaycanı parçalamaq lazımdır", "Kürə qədər onun ərazisini zəbt edib, qeyri-türk qruplarla birləşməliyik" və bu, "ermənilərin üzərinə düşən tarixi missiyadır", çünki "Cənubi Qafqazı xərçəng şişindən xilas etməliyik" (bax: Арам Саргсян. Раздробление Азербайджана реально: на армянство возложена миссия – избавить Южный Кавказ от злокачественной опухоли / "1in.am", 24 may 2016). Yalnız intellekt sahibləri olan bəzi erməniləri çıxmaq şərti ilə digərləri məhz Asatryan adlanan məxluqat kimi düşünürlər. Budurmu sülhpərvər erməni dövlətçilik şüuru? Budurmu savaş meydanında tülküyə dönüb, sonra özünü "şir" kimi aparmaq istəyən erməni siyasi liderlik ənənəsi?

**Faşist nökərinin erməni milli qəhrəmanı edilməsi: rəsmi İrəvanın növbəti nankorluğu**

Erməni dövlətçiliyi başdan-ayağa yalanlar üzərində qondarılıb. Rusiyanın siyasi və elmi dairələri açıq deyirlər ki, "Ermənistan Rusiya layihəsidir və Moskvanın iradəsindən kənarda belə bir ölkə yoxdur". S.Sarkisyan isə 28 may günü ilə bağlı xalqa etdiyi müraciətində utanmadan deyir ki, "bizim müstəqilliyimizi heç kəs hədiyyə etməyib" (bax: Президент принял участие в праздновании дня республики / "www.president.am", 28 may 2016). Anlaşılmadı – erməniləri "soyqırımı"na məruz qoyublar, yoxsa onlar mərdanə olaraq azadlıqları uğrunda müharibə aparıblar? Onları toyuq kimi biçiblər, yaxud "qəhrəman erməni əsgəri" süngüsü ilə azadlıq əldə edib?

Bunların heç biri olmayıb. Ermənistan adlanan dövləti Azərbaycan torpaqları üzərində ingilis-rus imperialist qüvvələri öz silahları gücünə yaradıblar. Burada ermənilər yardımçı cəllad rolunu oynayıblar ki, dinc müsəlmanları kütləvi qətlə yetiriblər. Ermənilər nifrət hissi ilə doğulur və bu hisslə də ölürlər. Nifrət edənlər əsla dövlət qura bilməzlər. Başqalarının qondardığı dövlət də uzun zaman mövcud ola bilməz.

İndi Ermənistanda baş verənlərə nəzər salsaq, dediklərimizdə tam haqlı olduğumuz təsdiq olunar. "Qalib erməni ordusu"nda tutatut davam edir. Üç generaldan sonra indi də general Mels Çilingəryan, polkovniklər Armen Marqaryan və Mqer Papyan həbs ediliblər, onlara qarşı cinayət işi açılıb (bax: Следственный комитет Армении сообщил подробности задержания троих высокопоставленных военных: назначены товароведческие экспертизы / "1in.am", 31 may 2016).

Bunlar vəzifələrindən sui-istifadə edərək erməni ordusu üçün nəzərdə tutulan müxtəlif təyinatlı malları mənimsəyiblər. Məsələn, kəşfiyyata, mühəndis işlərinə, silahlanmaya istiqamətlənməli olan maliyyəni şəxsi məqsədləri üçün istifadə ediblər. Ermənistan ordusunda həyata keçirilən digər "təmizləmə" əməliyyatlarını da nəzərə alsaq, belə nəticə çıxara bilərik ki, bu silahlı qüvvələr tamamilə nöqsan içindədir.

Ordunun silahlanması yarımçıq, mühəndis istehkamları bərbad, qidalanması keyfiyyətsiz, əsgərlərin bir-birinə münasibəti düşməncəsinə, döyüş qabiliyyəti çox aşağı və s. Bəs onda belə bir silahlılar yığını nizami Azərbaycan Ordusunun hücumunun qarşısını necə ala bilərdi? İnanın, onların belə bir gücü olsaydı, indi hücumlara ara verməzdilər, yeni torpaqlar zəbt etməyə çalışardılar.

Məhz güclü orduları olmadığına görə prezidentləri S.Sarkisyan ora-bura tullanır, siyasi şou yaradır, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) tərəfdaşlarından küsür, ekspertləri isə nifrətlərini Azərbaycanın yeni ərazilərinin işğal edilməsi xəyalını qurmaqla çıxarırlar. Reallıqda bu üsul erməniləri növbəti nevrotik vəziyyətə salacaq və onlar çox şeylər itirəcəklər.

Deyilənlərin ilk əlamətlərindən biri artıq özünü göstərib. Və bu, inanmayacaqsınız, ermənilərin havadarlarına, Ermənistan layihəsinin müəlliflərinə qarşı yönəlib. Məsələ ondan ibarətdir ki, İrəvanda Qaregin Njde adlı nasistə, rusların soyqırımını törətmiş, faşist Almaniyasına xidmət edən adama heykəl qoyulub. Rəsmi olaraq S.Sarkisyan da onu ziyarət edib (bax: Разве союзникам России можно героизировать нацистов? / "Вестник Кавказа", 31 may 2016).

Rusiyalı ekspert Sergey Markov "rus xalqının soyqırımında iştirak etmiş bir adam hərbi cinayətkardır", – deyib (bax: Установление в Ереване памятника Гарегину Нжде российские политологи расценили, как демарш Армении против России / "1in.am", 31 may 2016). Rəsmi İrəvan Rusiyaya düşmən olan birinin milli qəhrəman obrazını yaradırsa, deməli, növbəti nankorluğunu nümayiş etdirir. Kremlin bunu necə qəbul edəcəyi başqa mövzudur, lakin artıq görünür ki, ermənilər növbəti psixi-mənəvi anormallıq vəziyyətindədirlər.

Bütün bunlar S.Sarkisyanın bir siyasətçi olaraq bitməkdə olduğunu təsdiqləyir, ümumiyyətlə, Cənubi Qafqazda erməni dövlətçiliyinin baş tutmadığına işarə edir. Görünür, havadarlar nə dərəcədə tarixi səhv buraxdıqlarını etiraf etməlidirlər. Azərbaycanlılar demişkən, "ziyanın yarısından qayıtmaqda da bir xeyir var"!

***Newtimes.az***

## 5 ayda Ceyhan limanından 7,1 milyon tondan çox neft ixrac edib

***SOCAR mayda Novorossiysk limanından 79 min 963 ton, Supsa limanından 264 min 748 ton, Ceyhan limanından isə 1 milyon 454 min 760 ton xam neft ixrac edib.***



SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, yanvar-may aylarında Novorossiysk limanından 319 min 499 ton, Supsa limanından 1 milyon 40 min 947 ton, Ceyhan limanından 7 milyon 196 min 455 ton, Kulevi terminalından isə 14 min 946 ton xam neft ixrac olunub.

SOCAR tərəfindən ixrac olunan xam neftin göstəriciləri həm Azərbaycan dövlətinə, həm də şirkətin özünə məxsus xam neft həcmlərini əks etdirir.

## Ətraf mühitin mühafizəsi diqqət mərkəzindədir



Ətraf mühitin mühafizəsi və ekoloji problemlər Azərbaycanda da diqqət mərkəzindədir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi hər il 5 iyun - Ümumdünya Ətraf Mühit Günü ərəfəsində ətraf mühitin qorunması, təbiətdən, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası və mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi və həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi bu gün də Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətləridir.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında ekoloji mühitin sağlamlaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib, biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, yaşıllıqların artırılması, su ehtiyatlarının davamlı idarə olunması sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunub.

Qeyd edək ki, 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının İsveçin paytaxtı Stokholmda keçirilən iclasında 5 iyun tarixinin Ümumdünya Ətraf Mühit Günü kimi qeyd olunmasına qərar verilib. O vaxtdan etibarən bu gün bütün dünyada təntənəli şəkildə qeyd olunur. Builki Beynəlxalq Ətraf Mühit Günü "Vəhşi heyvanların qanunsuz ticarəti ilə mübarizə" mövzusuna həsr olunmuşdu.

## "İpək Yolu ölkələri mədəni irsi – milli bayramlar" filmi çəkilir

***"Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqı Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə "İpək Yolu ölkələri mədəni irsi–Mili Bayramlar" adlı filmin çəkilişini həyata keçirir. Bir neçə irqə, dinə, millətə xas olan adət-ənənələrin əks olunacağı film dünyanın üç qitəsinin mədəniyyətini bir yerə toplayacaq.***

GSW
International Youth Union

Mədəniyyət və Turizm Nazirliyindən bildirilib ki, film, İpək Yolu marşrutu üzərində yerləşən bütün regionu əhatə edəcək. Belə ki, bura Avropa, Asiya və Afrika qitələri (Albaniya, Çin, Misir, Gürcüstan, Yunanıstan, Macarıstan, Hindistan, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Malta, Moldova, Mərakeş, Pakistan, İtaliya, Rumıniya, Rusiya, Koreya Respublikası, Türkiyə, Ukrayna və Azərbaycan) daxildir.

Hədəf qrupu kimi layihədən birbaşa faydalananlar xüsusən gənclər olacaq. Filmin iyirmi beş ölkəni əhatə edəcəyini nəzərə alaraq burada bir milyonadək gəncin filmin nümayişində iştirakı və maariflənməsi gözlənilir.

Layihənin başlıca məqsədi nəinki Azərbaycan mədəniyyətinin, adət-ənənələrimizin göstəricisi olan milli bayramlarımızı dünya ictimaiyyətinə təbliğ etmək, həm də İpək Yolu üzərində yerləşən digər xalqların mədəniyyətlərini əks etdirən, ən qədim milli bayramlarını təbliğ etməkdir.

# QİDA ZƏHƏRLƏNMƏLƏRİ ZAMANI NƏ ETMƏLİ?

***Yay aylarında insanlar daha çox qida zəhərlənməsi diaqnozu ilə həkimlərə müraciət edirlər. Qida zəhərlənmələri nədən baş verir və ondan necə qorunmaq olar?***

Yay mövsümündə qida zəhərlənmələrinin sayı birinci növbədə iqlim şəraitinə görə artır. Havanın hərarəti yüksək olduqda müəyyən patogen mikroblar sürətlə çoxalır. Buna görə də yay aylarında qida zəhərlənmələrinin sayı artır. Eyni zamanda, yayda bəzi mövsümi xarakterli yeməklər də zəhərlənmələrə səbəb olur.



Zəhərlənmə halları əsasən qida məhsullarının düzgün saxlanılmamasından baş verir. Vaxtı ötmüş məhsulların qəbulu, dondurma, dönər kimi qidaların yay zamanı düzgün şəraitdə saxlanılmaması qida zəhərlənmələrinə yol açır. Yay aylarında qarpızdan zəhərlənmə də çox aktualdır. İnsanlar çox zaman qarpızdan zəhərləndiklərini düşünürlər. Əksinə, zəhərlənmə hallarının 99 faizi qarpızdan və ya qarpızın tərkibindəki nitratlar səbəbindən baş vermir. Bu, sadə bir qida zəhərlənməsidir. Qarpız ağacda yox, torpaqda bitir və satışa veriləndə açıq yerlərdə saxlanılır. Adətən evdə onu yumadan birbaşa kəsirlər. Həmin vaxt qarpızın tərkibinə mikroblar düşür. Bir neçə saatdan sonra həmin mikroblar orda inkişaf edir. Beləliklə, qarpızı yedikdən sonra insanda zəhərlənmə əlamətləri başlayır.

Bəs, qida zəhərlənmələrinin əsas əlamətləri necə olur? İlk növbədə bilmək lazımdır ki, qida zəhərlənməsi üçün bəzi hallarda inkubasiya dövrü bir neçə saat olur, yəni səhər süd məhsulu yeməklə siz özünüzdə prodromal dövr hiss edəcəksiniz. Prodromal dövr dedikdə ümumi zəiflik, halsızlıq, ürək bulanması, qusma, ishal və bədən hərarətinin qalxması nəzərdə tutulur.

Zəhərlənmə müşahidə olunarkən birinci növbədə mədə və bağırsağın yuyulmasına (çoxlu miqdarda sodalı və ya marqanslı su içmək) əməl etmək lazımdır. Bağırsağı imalə etmək də əhəmiyyətlidir. Əgər bu mümkün deyilsə, hər 10 kiloqram bədən çəkisinə 1 həb olmaqla kömür dərman vasitəsini əzərək onu 1 stəkan suya qatıb içmək olar. Məsələn, sizin çəkiniz 70 kiloqramdırsa, 7 həb kömür dərmanını əzib suda içmək vacibdir. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin inkişafının qarşısı alınır. Artıq zəhərlənmə inkişaf edibsə, onu ev şəraitində müalicə etmək məsləhət deyil, çünki ağırlaşmalar baş verə bilər.

Qida zəhərlənmələrinin ən ağır forması insan ölümünə gətirib çıxaran botulizmdır. Botulizm xəstəliyinə səbəb düzgün şəraitdə hazırlanmamış konserv məhsullarının qəbuludur. Oksigen olmayan şəraitdə botulotoksin əmələ gəlir və insanda botulizm adlı xəstəlik baş verir. Başqa ağır qida zəhərlənmələrindən taun xəstəliyini deyə bilərik. Buna çox nadir hallarda rast gəlinir. Qalan qida zəhərlənmələri adətən stafilokok və s. kimi mikrobtörədici xəstəliklərdir ki, bunlar da yüngül və orta keçə bilər.

Bağırsaq infeksiyaları isə sadəcə olaraq qida toksik infeksiyalarının adıdır. Bu xəstəliklərin hamısı eynidir. Bəziləri buna qida zəhərlənməsi, bəziləri bağırsaq infeksiyaları, bəziləri isə qida toksik infeksiyaları deyir.

# İNSAN QOCALDIQCA MÜDRİKLƏŞİR



***ABŞ-ın Maunt Sinay Tibb Məktəbinin əməkdaşları müəyyən ediblər ki, insan beyninin bəzi xüsusiyyətləri yaş ötdükcə daha da təkmilləşir. İndiyədək belə hesab olunurdu ki, əqli qabiliyyətlər insan 20 yaşında olarkən öz zirvə nöqtəsinə çatır.***

Tədqiqatın nəticələri isə göstərdi ki, yaşlı insanlarda belə uzunmüddətli yaddaş nəinki zəifləmir, hətta danışıq qabiliyyəti, emosional intellekt və sosial vərdişlər daha üstün səviyyədə olur. Bunu “Daily Telegraph”a istinadən “İzvestiya Nauki” xəbər verib. Qısamüddətli yaddaş, qazanılmış bacarıqlar və düşünmə qabiliyyətinə gəlincə isə, onlar zaman ötdükcə həqiqətən də zəifləyir. Mütəxəssislərin kəşfi qocalma effektinin rezus-makaka meymunları üzərində öyrənilməsi nəticəsində əldə edilib. Müəyyən olunub ki, yaşlı meymunlarda beyin yeni bitkilərin mənimsənilməsinə görə cavabdeh olan qəbuledici neyronların (sinir hüceyrələri) təqribən yarısını itirir. Bununla belə, uzunmüddətli yaddaşa cavabdeh neyronlar toxunulmaz qalır. Xatırladaq ki, Kaliforniyanın San Diyeqo Universitetinin mütəxəssisləri yaşla qazanılan müdrikliyin olması faktına sübutlar tapıblar. Belə ki, alimlər yaşı 60-100 arasında olan 3000 kaliforniyalının beynini skanlaşdırdıqdan sonra müəyyən ediblər ki, yaş ötdükcə insanlar, həqiqətən də, daha da müdrikləşirlər.

# Kondisionerdən düzgün istifadə edilməməsi ağır fəsadlara səbəb ola bilər

***Yay mövsümündə havaların isti keçməsi insanların kondisionerlərə olan tələbatını artırır. Lakin bu texnikadan düzgün istifadə edilmədikdə ziyanı xeyrindən daha çox olur. Mütəxəssislərin sözlərinə görə kondisionerlərdən istifadə zamanı bayırdakı hava ilə otaq temperaturu arasında 10 dərəcə fərq olmalıdır.***

Kondisionerdən istifadə zamanı insan orqanizmindəki temperatur da nəzərə alınmalıdır. Belə ki, insan orqanizmində temperatur 36-35 arası olursa, kondisionerdə dərəcə 16-nı göstərməlidir. Ən yaxşı halda 17 dərəcə.

Kondisionerlərdən həddindən artıq çox istifadə otağın havasına da mənfi təsir göstərir. Havanın vitamin qaynağı hesab olunan aeroionlar öz funksiyasını itirir. Bu da oksigen azlığına səbəb olur.

Bu qurğudan istifadə rejimləri düzgün qurulmadıqda insanlarda mövcud olan bir sıra xəstəliklər daha da ağırlaşır. Həmin nahiyələrdə qurumalar baş verir.

Mütəxəssislərin sözlərinə görə istifadə olunan kondisionerlərin vaxtında təmizlənməməsi də xoşagəlməz fəsadlar yaradır. Bu da asma, allergiya kimi xəstəliklərə yol açır. Bütün yarana biləcək mənfi halların qarşısını almaq üçün isə kondisionerlərdən düzgün istifadə olunması vacibdir.

# OKEAN BALIĞININ SİRLİ XÜSUSİYYƏTİ AŞKARLANIB

***ABŞ-ın Texas Universitetinin alimləri okean sularında yaşayan “iri gözlü stavrid” və Atlantik “ay balığı” kimi tanınan “Selena”da sirli xüsusiyyətlər aşkarlayıblar.***



ABŞ-ın “The Washington Post” qəzetinin saytı xəbər verir ki, bu balıqlara işıq düşən zaman gümüşü pulcuqlarının üzərindəki elementlər onu tamamilə görünməz edə bilir.

ABŞ hərbi donanması balığın bu xüsusiyyətini dərindən araşdırmaq üçün tədqiqatçılara maliyyə dəstəyi göstərir. Texas Universiteti alimlərinin sözlərinə görə, balıqlar bu sehr sayəsində dalğaların işığında seçilmir. Onların dərisinin səthindəki mikroskopik elementlər işığı özündə əks etdirərək “kamuflyaj” (göz aldatma) yarada bilir.

Uzun illərdir ki, ABŞ hərbi donanması gəmilərini suda görünməz etmək üçün yollar axtarır. Bu araşdırmalar sayəsində hərbi donanma “kamuflyaj”ın bu metodunu dərk etməyə daha bir addım yaxınlaşıb.

***Tahir DADAŞOV***

# OVQATIN RƏNGİ

***ABŞ-ın Roçester Universitetinin mütəxəssisləri insanın əhval-ruhiyyəsi ilə rəng duyumu arasında qarşılıqlı əlaqə aşkar ediblər.***



ntv.ru saytının yazdığına görə, Amerika alimləri tədqiqatda iştirak edən 127 könüllü tələbəni iki qrupa ayırıblar. Birinci qrup qəmli sujeti olan videoçarxlara, ikinci qrup isə şən süjetli videoçarxlara tamaşa edib. Eksperimentin ikinci mərhələsində tələbələrə 48 müxtəlif rəng göstəriblər və bu rənglərin hansı rəng kateqoriyasına (sarı, yaşıl, qırmızı və göy) aid olduğunu soruşublar. Məlum olub ki, kədərli videoçarxlar rəng duyumunda konkret dəyişikliklər yaradıb. Birinci qrupdakı könüllülər göy-sarı oxdakı rəngləri şən videolara baxanlara nisbətən daha pis ayırd ediblər. Müşahidə edilib ki, ovqatı təlx olan adamlar dünyanı həqiqətən boz və darıxdırıcı görürlər.

***Tahir DADAŞOV***

# YARIZARAFAT, YARIGERÇƏK

**Heç olmasa “Ekologiya ili”ndə layiq olanların hamısına qədir ağacı əkmək lazımdır.**

**Papaq ancaq qar yağanda yada düşməməlidir.**

**Gender bərabərliyini çox vaxt qadınlar pozurlar. Kişilərə güzəştə gedirlər.**

**Sözünün üstündə durmayan, lap ipin üstündə dayansın, nə xeyri?**

**Qadınlar bilsələr ki, kişilər nə yuvanın quşudur, bir quş yuvası saxlamazlar.**

**Ermənilərin soyu olub ki, qırımı da ola?**

**Qadınlar kişilərə ona görə güzəştə gedirlər ki, kişilər çox uzağa getməsinlər.**

**Gör-götür dünyasında nə görməyindən asılı olmayaraq nə götürməyinə fikir ver.**

**Yalanlara bax e... Formaca da müxtəlif, məzmunca da.**

**Niyə bəziləri yalanı çox böyük həvəslə, həqiqəti canı çıxa-çıxa danışır?**

**Adam var ağzını açma, adam var ağız.**

**Üz göstərdiyin adamlar o qədər astarı neyləyirlər?**

**İtki pis şeydirsə, adamlığını itirənlər niyə narahat olmurlar?**

**Hər pulu olanın dostu olsa da, hər dostu olanın pulu olmur.**

**Ayaq üstə dura bilmirsənsə, qalxma, çünki ya yıxılacaqsan, ya da yıxacaqlar.**

**Yanımdan salamsız keçənlərin sayı çoxalıb. Pulum olan kimi özümə böyük bir ərik bağı alacağam.**

**İstedadsız adamlar nəyi bacarmasalar da, özlərinə yol açmağı bacarırlar.**

**Yaxşı ki, hər yerin aşağı başı var. Yoxsa gərək ömrüm boyu ayaq üstə dayanaydım.**

**Əzildiyi üçün həqiqətin üstündə çox dayanmırlar?**

**Pul üçün can əsirgəməyənlər canı üçün pul əsirgəməyənlərdən qat-qat çoxdur.**

**Ümid yaxşı şeydir və deməli, yaxşı nəyimizsə var.**

**Həqiqətdən adətən yalana doğru qaçırlar.**

**Rahat yerdə olduğu üçün ən çox qulağımızı kəsirlər?**

**Müxalifətin iqtidar olmaq istəyində pis heç nə yoxdur. Pis odur ki, pis iqtidar olacaqlar.**

**“Ərəb baharı”ndan sonra ən sərt qışa da şükür edənlər çoxalıb.**

**Adam var, hər səhvinə görə üzr istəsə, onda gərək ömrü boyu ancaq üzr istəyə.**

**Bəzi adamlar ağızlarını açan kimi “qandıqları qrafalar” bəlli olur.**

**Uşaqlarımıza Qarabağ problemindən başqa nəyi deyirsən, saxlayaq.**

**Məndənsə... puluna güvən.**

**Tez-tez külək əsən səmtə yıxılanın niyə heç yeri ağrımasın?**

**Tökməyə bir şey olmadığı üçün adamın zəhləsini tökürlər?**

**Yalançının evi yandı, Fövqəladə Hallar Nazirliyi inanmadı.**

**Mat olacaqsansa, şah olma.**

**Ermənidən başqa hər şeyin yaxşısı da olur.**

**Ürəyi böyük olmayanlar nə boyda olsalar da, cılız adamlardır.**

**Əvəzsiz yaxşılıq yaxşılıqların ən yaxşısıdır.**

**Mərhəmətli olanın daha çox boynu ağrıyır. Oturmaq istəyən çox olur.**

***Rasif TAHİROV***



## Məşhur futbolçu Pele mükafatlarını hərraca çıxaracaq

***Braziliyalı məşhur futbolçu Pele karyerası ərzində qazandığı medal və mükafat kolleksiyasını Londonda keçiriləcək hərracda satmağa hazırlaşır.***

Vesti.ru saytı xəbər verir ki, məşhur futbolçunun satışa çıxardığı əşyalar və mükafatlar arasında dünya çempionatlarının 3 medalı, futbol çəkmələri, 1000-ci qolunu vurduğu top, həmçinin Jül Rime Kubokunun surəti də var.

1970-ci ildə keçirilən dünya çempionatının kubokunun surəti "Julien's Auctions" kompaniyasının təşkil etdiyi hərracın ən bahalı lotu ola bilər. Onun ilkin qiymətinin 600-800 min dollar təşkil edəcəyi bildirilir.

Satışlardan əldə olunan gəlirin ümumi həcminin 7 milyon dollardan artıq olacağı gözlənilir.

75 yaşlı futbolçu 60 illik karyerası ərzində topladığı mükafatların satışından əldə etdiyi gəlirin bir hissəsini xeyriyyəçiliyə, o cümlədən Braziliyadakı uşaq bağçalarına xərcləyəcəyini deyib.

Qeyd edək ki, Pele FİFA-nın versiyasına görə, XX əsrin ən yaxşı futbolçusu, Beynəlxalq Olimpiya Komitəsinin versiyasına görə isə XX əsrin ən yaxşı idmançısı adına layiq görülüb. O, üç dəfə dünya çempionu olan yeganə futbolçudur.

# ƏFSANƏVİ BOKSÇUNUN ÖLÜMÜ HAMINI SARSITDI



***İyunun 3-də əfsanəvi boksçu Məhəmməd Əli 74 yaşında dünyasını dəyişdi.***

Planetin ən məşhur idmançılarından biri olan Məhəmməd Əlinin ölümü idmansevərləri dərindən kədərləndirdi. Əhsanəvi boksçu ölümündən iki gün əvvəl tənəffüs sistemində yaranan problemlə bağlı Arizona ştatının Feniks şəhər xəstəxanasında yerləşdirilmişdi.

1984-cü ildən Parkinson xəstəliyindən əziyyət çəkən Məhəmməd Əli peşəkar karyerası ərzində 37-si nokautla olmaqla, 56 döyüşdə rinqi qələbə ilə tərk etmişdi. O, keçirdiyi 61 döyüşün yalnız 5-də məğlubiyyətə uğramışdı. Onun adı peşəkar boksun simvoluna çevrilib.

"XX əsrin idmançısı" Məhəmməd Əli 1960-cı ildə Roma Olimpiya Oyunlarının çempionu olub, 1999-cu ildə isə "Əsrin idmançısı" seçilib.

1942-ci il yanvarın 17-də ABŞ-ın Kentukki ştatının Luisvill şəhərində doğulan Məhəmməd Əli İslam dinini qəbul edənədək Kassius Marsellus Kley (Cassius Marcellus Clay) adını daşıyıb.



## Bakı trası unikaldır

***"www.championat.com" saytı xəbər verir ki, Beynəlxalq Avtomobil Federasiyasının (BAF) yürüş direktoru Çarli Uaytinq Bakı trası barədə fikirlərini bölüşüb.***



Qeyd edək ki, Ç.Uaytinq "Formula-1" Avropa Qran-pri yarışlarının küçə avtodromunun final yoxlanışı üçün Bakıya səfər edib.

BAF rəsmisi bildirib ki, Bakı daha çox Sinqapura oxşayır. Eyni zamanda, Monako Qran-prisinə də oxşarlıq var. Lakin Monte-Karlo trası daha ləng və qısadır. Bakı marşrutu çox sürətli, maraqlı bölmələrdən və bir ləng hissədən ibarətdir. Çarli Uaytinq əlavə edib: "Komandaların öz avtomobillərini bu trasa necə uyğunlaşdıracağı mənim üçün çox maraqlıdır. Əgər Sinqapurda cəmi bir düz hissə varsa, Bakıda başqa cürdür. Bu unikal trasdır".




## Maksimum sürətə ümid bəsləyirlər

***Bakıda "Formula-1" Avropa Qran-pri yarışlarının nümayəndələri yürüşçülərin buradakı trasda bütün mövsüm ərzində ən yüksək sürətə nail olacaqlarını istisna etmirlər.***

"www.championat.com" saytına görə, bunu "Baku City Circuit"un icraçı direktoru Arif Rəhimov bəyan edib.

O deyib: "Bizim trasımız uzunluğuna görə Spadan sonra ikincidir, çox uzundur və sürətlidir. Biz özümüzü "Formula–1" təqvimində ən sürətli şəhər trası hesab edirik. Ola bilsin ki, nəzəri baxımdan maksimal sürətə görə ən sürətli tras deyilik, amma trasın 2,5 kilometr uzunluğunda düz hissəsi var. Yürüşçülər burada böyük sürətə nail ola bilərlər.

Kompyuter simulyasiyasına görə, sürət saatda 340 kilometr ola bilər. Amma biz düşünürük ki, o, daha böyük olacaq. Simulyatorlar kiçik sürət üçün çox dəqiqdir, amma böyük sürət götürdükdə yanıla bilir. Hazırda sürət rekordu saatda 360 kilometrdən yüksəkdir. Ola bilsin, biz öz trasımızda bu rekordu yeniləyəcəyik".

## "Red Bull" paraşütçüləri Bakı səmasında Avropa Qran-prisi üçün uçublar

***"Red Bull Skydive" (paraşüt) komandasının istedadlı üzvləri – Marko Valtenşpil və Corc Latner Bakıya səfərləri çərçivəsində şəhər sakinlərinin qarşısında inanılmaz hava akrobatikası bacarıqlarını nümayiş etdirərək insanların uçmaq arzusunun artıq gerçək olduğunu sübuta yetiriblər.***



Güclü küləyin olmasına və hava şəraitinin tez-tez dəyişməsinə baxmayaraq, akrobatlar vinqsyut (parçadan tikilmiş qanad-kostyum) və beyscampinq (tərpənməz obyektlərdən tullanma) elementlərini uğurla həyata keçiriblər.

Şou zamanı akrobatlar Azərbaycanın dövlət bayrağını, o cümlədən "Formula-1" Avropa Qran-prisinin bayrağını yüksəkliyə qaldıraraq Bakı buxtasının üzərində dalğalandırıblar və şəhərin ecazkar görünüşünə xüsusi rəng qatıblar.

Marko Valtenşpil və Corc Latner avstriyalı paraşütçülərdir və hər ikisi vinqsyut uçuşu və beyscampinq üzrə ixtisaslaşıblar. Marko paraşütlə tullanma ilə 2011-ci ildən məşğul olur, lakin ilk tandem tullanışını 11 yaşında olarkən reallaşdırıb.

Havada qəhrəmancasına nümayiş etdirdiyi çıxışdan sonra müsahibə verən Marko Valtenşpil deyib: "Müəyyən yerlərdə hava kifayət qədər küləkli idi, lakin ümumi götürdükdə, Bakı səması paraşütçülük etmək üçün çox əlverişlidir. Azərbaycan bayrağını havada dalğalandırmaq mənim üçün qürurverici bir hiss idi. Eyni zamanda, Bakı sakinlərinə belə həvəsləndirici anlar və yaddaşlarda qalacaq xatirə yaşada bildiyim üçün sevincliyəm".

Corc Latner bildirib ki, yüksəklikdən tullanma növləri arasında mənim ən çox xoşladığım vinqsyut uçuşudur. Bakı səmasında tullanmaqdan sözün əsl mənasında zövq aldım. Bugünkü küləklə bacarmaq sözsüz ki, çətin idi, amma buna baxmayaraq mən xeyli əyləndim. Şəhərin üzərində süzərkən və küçələrində gəzişərkən Bakının Avropa Qran-prisini qarşılamağa hazır olduğuna şahidlik etdim.

C.Latner 12 yaşındaykən ilk dəfə Salzburq şəhərində tandem tullanışını sınayıb. Elə həmin ildə də hava idmanı ilə peşəkar səviyyədə məşğul olmaq qərarına gələn idmançı bu arzusunu yetkinlik yaşında həyata keçirməyi bacarıb.







## E L A N

**1985-ci ildə Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbini gəmi sürücülüyü ixtisası üzrə bitirməsi barədə Qurbanov Həmid Nadir oğluna verilmiş 205/1985 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1670